Xalqın qəzeti!

# Xalq qəzeti

№ 143 (30547) 11 iyul 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## "Moody's" ölkəmizin reytinqini "sabit"dən "müsbət"ə qaldırıb




Səhifə ⇨ 7

# COP29: "Yaşıl həmrəylik" təhlükəsiz qlobal gələcəyə "yaşıl işıq" yandırır

**Bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 konfransında dünyada karbon qazının miqdarını sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi, 1,5 dərəcə Selsi ilə məhdudlaşdırmaqla bu sahədə irəliləyişə nail olmaq, tədbirdə iştirak edən ölkələr üçün yeni öhdəliklər götürmək və iqlim böhranını aradan qaldırmaq kimi məsələlərin müzakirəsi nəzərdə tutulub. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü il ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bütün bunlar respublikada qlobal ekoloji problemlərin həllinə və ekoloji təhlükəsizliyə nə qədər böyük diqqət göstərildiyinin əyani nümunəsidir.**

Ölkəmizin ekoloji təhlükəsizliyinin təmin olunması məsələsində Nazirlər Kabineti tərəfindən müxtəlif tədbirlər planı hazırlanaraq həyata keçirilir. Həmin planlarda nəzərdə tutulan prioritetlərin vaxtında və operativ şəkildə yerinə yetirilməsində elmi-tədqiqat müəssisələri, o cümlədən Elm və Təhsil Nazirliyi akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu fəal rol oynayır. Bununla bağlı institutun icraçı direktoru, professor Əfsun Sucayevə bir neçə sualla müraciət etdik.

(ardı 8-ci səhifədə)




## NATO sammitində üçtərəfli görüş



### *Sülh sazişinin yekunlaşdırılması davam etdiriləcək*

**NATO-nun 75 illiyinə həsr olunmuş Zirvə görüşü çərçivəsində iyulun 10-da ABŞ Dövlət katibi Antoni Blinkenin təşəbbüsü və iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında Vaşinqtonda görüş keçirilib.**

Tərəflər Azərbaycan və Ermənistanın sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında tarixi sazişin yekunlaşdırılması istiqamətində əldə olunmuş irəliləyişi qeyd edib və bu istiqamətdə işi davam etdirməyə razılaşıblar.

Hər iki tərəf görüşə evsahibliyinə görə Dövlət katibinə minnətdarlıqlarını bildiriblər.

*XQ*

## Vaşinqtonun "təşəbbüsü" və Bakının qətiyyəti

### Ağ evin NATO-nun yubiley sammitini sülh danışıqlarında vasitəçiliyin bərpasına çevirmək cəhdi



**Vaşinqtonda Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov, onun erməni həmkarı Ararat Mirzoyan və ABŞ Dövlət katibi Antoni Blinken arasında üçtərəfli görüşün keçiriləcəyi barədə İrəvan məlumat yaymışdı.**

Dünən səhər Ermənistan xarici işlər nazirliyinin mətbuat katibi Ani Badalyan görüşlə bağlı belə bir məlumat paylaşdı: "Vaşinqtonda əldə olunmuş razılaşmaya əsasən, iyulun 10-da Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və ABŞ Dövlət katibi Antoni Blinkenin iştirakı ilə üçtərəfli görüş keçiriləcək".

Qeyd edək ki, Azərbaycanın XİN-in bir gün əvvəlki rəsmi məlumatında nazir Ceyhun Bayramovun Amerika Birləşmiş Ştatlarına işgüzar səfərə yola düşdüyü, səfər çərçivəsində onun paytaxt Vaşinqtonda keçiriləcək NATO-nun Zirvə görüşündə iştirakı, habelə bir sıra yüksək səviyyəli ikitərəfli görüşlər keçirəcəyi bildirilirdi. Fəqət üçtərəfli görüş barədə rəsmi açıqlama verilməmişdi.

(ardı 4-cü səhifədə)

## Mərkəzi Seçki Komissiyasında müşavirə

**Mərkəzi Seçki Komissiyası sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin yüksək səviyyədə təşkili, azad, ədalətli və şəffaf keçirilməsi, eləcə də müxtəlif statuslu seçki subyektlərinin maarifləndirilməsi və məlumatlandırılması məqsədilə genişmiqyaslı kampaniyaya start verib.**



Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" rəhbər tutulmaqla hazırlanan və seçki iştirakçıları üçün müxtəlif istiqamətləri əhatə edən maarifləndirmə proqramına uyğun olaraq, iyulun 10-da ilk tədbir – ölkə üzrə bütün dairə seçki komissiyalarının sədrləri üçün müşavirə keçirilib.

(ardı 5-ci səhifədə)

## Sabiq baş nazir varisinə nə məsləhət görür?



Səhifə ⇨ 11



## Hidayət dünya cüdosunun zirvəsindədir

Səhifə ⇨ 11

## Dünya heç vaxt Ermənistanda "kəsişməyəcək"



Səhifə ⇨ 4

# "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs yaradılsın.

**2.** "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3.** Müəyyən edilsin ki:

3.1. Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti (bundan sonra – Xidmət) adıçəkilən rayona əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

3.2. Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

3.3. Xidmətin fəaliyyətinə cari rəhbərliyi Xidmətin Müşahidə Şurasının vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir;

3.4. Xidmətin nizamnamə fondu 500 000 (beş yüz min) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır;

3.5. Xidmətin saxlanılma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir.

**4.** Xidmətin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. nizamnamənin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. idarəetmə orqanlarının yaradılması;

4.1.3. Müşahidə Şurasının sədrinin və digər üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.4. Xidmətin yenidən təşkili və ləğvi;

4.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.2. Xidmətə:

4.2.1. Xidmətin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiqi;

4.2.2. bu Fərmanın 4.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Xidmət "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Xidmətin nəqliyyat vasitələri ilə təmin olunması və maddi-texniki təminatı məsələlərinin həlli üçün zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

6.1. bu Fərmanın 3.4-cü bəndində nəzərdə tutulan maliyyələşməni təmin etsin;

6.2. Xidmətin saxlanılması və fəaliyyəti üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun.

**7.** Xidmət:

7.1. Xidmətin dövlət qeydiyyatına alınması üçün bu Fərman qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

7.2. Xidmət dövlət qeydiyyatına alındıqdan sonra Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

7.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2024-cü il**

# "Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 2151 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 2151 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 655 (Cild I); 2024, № 4, maddə 373) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.1-ci bənddə "Laçın və Kəlbəcər rayonlarına" sözləri "adıçəkilən rayona" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Fərmanla təsdiq edilmiş "Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"nin 1.1-ci bəndində "Laçın və Kəlbəcər rayonlarına" sözləri "adıçəkilən rayona" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2024-cü il**

# "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**Müşahidə Şurasının sədri**

Bəşir Hacıyev – Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi

**Müşahidə Şurasının üzvləri:**

Elnur Əliyev – Azərbaycan Respublikası iqtisadiyyat nazirinin birinci müavini

Sarvan Cəfərov – Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Namiq Hümmətov – Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini

Azadə Hüseynova – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2024-cü il**

# III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlığı haqqında Saziş" iştirakçılarının Bədən Tərbiyəsi və İdman Şurasının 2021-ci il 20 dekabr tarixli növbədənkənar iclasında III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi barədə qərar qəbul edilmişdir.

Azərbaycanın MDB Oyunları kimi əhəmiyyətli bir idman tədbirinə ev sahibliyi etməsi onun idman ölkəsi kimi artan nüfuzunun daha da möhkəmlənməsinə, gələcəkdə belə mühüm layihələrin respublikamızda yüksək səviyyədə təşkil edilməsinə müsbət təsir göstərəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda layiqincə keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** 2025-ci ilin oktyabr ayında Azərbaycanda III MDB Oyunlarının keçirilməsi üzrə aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Azərbaycan Respublikasının gənclər və idman naziri

**Təşkilat Komitəsinin üzvləri:**

Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi sədrinin müavini

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktorunun müavini

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyəti sədrinin müavini

Heydər Əliyev Beynəlxalq Aeroportu direktorunun müavini

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini

"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi baş direktorunun müavini

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin vitse-prezidenti

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti

"CBC Sport" televiziya kanalının baş direktoru

Oğuz Rayon İcra Hakimiyyətinin başçısı

Bərdə Rayon İcra Hakimiyyəti başçısının müavini

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini

Goranboy Rayon İcra Hakimiyyəti başçısının müavini

Göygöl Rayon İcra Hakimiyyəti başçısının müavini

İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının müavini

Qazax Rayon İcra Hakimiyyəti başçısının müavini

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini

Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının müavini

Naftalan Şəhər İcra Hakimiyyəti başçısının müavini

Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini

Şəmkir Rayon İcra Hakimiyyəti başçısının müavini

Tərtər Rayon İcra Hakimiyyəti başçısının müavini

Tovuz Rayon İcra Hakimiyyəti başçısının müavini

Yevlax Şəhər İcra Hakimiyyəti başçısının müavini.

**2.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi aidiyyəti yerli icra hakimiyyəti orqanları ilə birlikdə III MDB Oyunlarının keçirilməsinə dair xüsusi tədbirlər planını hazırlayıb Təşkilat Komitəsinə təqdim etsin.

**3.** Təşkilat Komitəsi III MDB Oyunlarının 2025-ci ildə Azərbaycanda keçirilməsi ilə bağlı zəruri məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2024-cü il**

# Milli Məclis Sədrinin Rusiyaya işgüzar səfəri

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti MDB Parlamentlərarası Assambleyasının Şura iclasında və BRICS ölkələrinin X Parlament Forumunda iştirak etmək üçün iyulun 10-da Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfər edib.**




Səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarova BRICS Parlament Forumunun plenar və MDB PA-nın Şura iclaslarında iştirak edəcək.

***XQ***

# Xətai və Yasamal RİH başçılarına xəbərdarlıq edilib

**Bakı Şəhər İcra Hakimiyyətində paytaxt rayon icra hakimiyyətlərinin və şəhərin təsərrüfat xidmətləri rəhbərlərinin iştirakı ilə geniş müşavirə keçirilib.**



Toplantıda bir sıra məsələlər, o cümlədən son vaxtlar paytaxtda aparılan genişmiqyaslı təmir-abadlıq işləri, sanitar təmizlik məsələləri müzakirə edilib, işlərin sürətləndirilməsi və müəyyən edilən vaxtda keyfiyyətlə başa çatdırılması ilə bağlı müvafiq tapşırıqlar verilib.

Rayonlarda görülən təmir işlərinin müzakirəsi zamanı qeyri-yaşayış obyektlərinin fasadlarının və mövcud hasarların vəziyyətinin qeyri-qənaətbəxş olması ilə əlaqədar Xətai və Yasamal RİH başçılarına ciddi xəbərdarlıq edilib, qısa müddət ərzində bu sahədə dönüş yaradılması ilə bağlı müvafiq tapşırıqlar verilib.

Şəhərdə aparılan yaşıllaşdırma işlərinin vəziyyəti də müzakirə edilib. Məsul şəxslərə yaşıllıq zonalarının artırılması, görülən işlərin daha da genişləndirilməsi, əkilən həmişəyaşıl kollar və çiçəklərin sayının artırılması tapşırılıb.

***XQ***

# Ceyhun Bayramovun görüşləri



**İyulun 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov NATO Zirvə görüşündə iştirakı çərçivəsində təşkilatın Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina ilə görüşüb.**

Görüşdə Azərbaycan–NATO əməkdaşlıq gündəliyinin təhlükəsizlik, müdafiə, enerji təhlükəsizliyi, kritik infrastruktur obyektlərinin mühafizəsi, təhsil və digər aspektləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə edilib. Azərbaycanın NATO ilə əməkdaşlığını təsbit edən "Sülh naminə Tərəfdaşlıq" proqramı çərçivəsində 30 illik tərəfdaşlığın qarşılıqlı anlaşma şəraitində uğurla davam etdirilməsi məmnunluqla qeyd olunub.

Ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi barədə məlumat verən Ceyhun Bayramov COP29 sədrliyimizin qlobal çağırışlarla mübarizə fəaliyyətimizin növbəti bariz nümunəsi olduğunu bildirib.

Nazir Ermənistan tərəfindən mülki şəxslərə qarşı mina təhdidinin davam etdirilməsi, bu ölkənin sürətlə silahlanması faktlarına diqqət çəkib. Bununla yanaşı, Azərbaycanın Ermənistanla sülh prosesinin əsas elementlərinin təşəbbüskarı kimi bölgədə sülh və sabitliyin bərqərar edilməsində maraqlı tərəf olduğu xatırlanıb. Sülh sazişi layihəsi üzrə əhəmiyyətli irəliləyişə baxmayaraq, Ermənistanın Konstitusiyasında ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı davam edən iddialar xatırlanıb.

*

***Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Belçika Krallığının xarici işlər, Avropa məsələləri, xarici ticarət və federal mədəniyyət institutları üzrə naziri Hadja Lahbib ilə də görüşüb.***

Görüşdə ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin perspektivləri, habelə postmünaqişə dövründə mövcud regional vəziyyət müzakirə olunub.

İki ölkə arasında qarşılıqlı səfərlərin, beynəlxalq tədbirlər zamanı təmasların əməkdaşlıq məsələlərinin müzakirəsinə mühüm töhfələr verdiyi diqqətə çatdırılıb. Mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Bu il ölkəmizin COP29-a evsahibliyi etməsinin iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlığın perspektivlərini aktuallaşdırdığı vurğulanıb.

Söhbət zamanı, eyni zamanda, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq imkanları, xüsusilə Avropa İttifaqı (Aİ) ilə münasibətlərdən ətraflı bəhs olunub.

***XQ***

# Ordumuzun zabiti həlak olub

**Azərbaycan Ordusunun zabiti Məhərrəmov Seydullah Sadiq oğlu bədbəxt hadisə nəticəsində həlak olub. Faktla bağlı araşdırma aparılır.**

XQ-nin məlumatına görə, hərbçimiz Vətən müharibəsində iştirak edib. O, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Şuşanın azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə" medalları ilə təltif olunub.

Müdafiə Nazirliyinin rəhbərliyi həlak olan hərbi qulluqçumuzun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyir.

**Allah rəhmət eləsin!**

*Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin NİZAMNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti (bundan sonra – Xidmət) adıçəkilən rayona (bundan sonra – müvafiq ərazi) əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, bu qaydada tikilmiş çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmət ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Xidmət bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Xidmətin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, üzərində öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Xidmətin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Xidmət məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Xidmət Kəlbəcər şəhərində yerləşir.

**2. Xidmətin fəaliyyət istiqamətləri**

2.1. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək;

2.1.2. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binaları, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək, müvəqqəti idarə etmək;

2.1.3. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatı idarə etmək;

2.1.4. müvafiq ərazidə abadlaşdırma və yaşıllaşdırma işlərini təşkil etmək;

2.1.5. müvafiq ərazidə yerləşən, ümumi istifadədə və balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək.

**3. Xidmətin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Xidmətin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək, o cümlədən bu tikinti işləri üzrə sifarişçi funksiyalarını həyata keçirmək;

3.1.2. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binaların qorunmasını və saxlanılmasını təmin etmək, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək bu binaları müvəqqəti idarə etmək;

3.1.3. idarə etdiyi çoxmənzilli binaları isti su və istiliklə təchiz etmək, həmin binaların istilik enerjisinə olan tələbatının ödənilməsini təmin etmək;

3.1.4. idarə etdiyi çoxmənzilli binalarda quraşdırılmış liftlərin işlək vəziyyətdə saxlanılmasını, cari və əsaslı təmirini həyata keçirmək, onların istismarına nəzarət etmək;

3.1.5. tikintisini təşkil etdiyi çoxmənzilli binaların idarə edilməsi, ümumi əmlakının (o cümlədən liftlərin) saxlanılması, cari və əsaslı təmiri üzrə xidmət və işlərə görə ödənilən haqqın daxil olduğu yaşayış sahəsinin saxlanılmasına və təmirinə görə haqq almaq;

3.1.6. müvafiq ərazidə tikintisini təşkil etdiyi çoxmənzilli binalara və fərdi yaşayış evlərinə sakinlərin köçməsindən irəli gələn təşkilati və digər tədbirlər görmək;

3.1.7. müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatın və mənzil-istismar sahələrinin yaradılmasını və idarə olunmasını təşkil etmək, mühəndis-kommunikasiya təminatı sistemlərinin saxlanılmasına, cari və əsaslı təmirinə, eləcə də istismarına nəzarət etmək, mənzil-kommunal infrastrukturunun inkişafını təmin etmək;

3.1.8. müvafiq ərazidə əhaliyə göstərilən kommunal xidmətlərin keyfiyyətinə və həcminə nəzarəti həyata keçirmək;

3.1.9. müvafiq ərazidə içməli su, kanalizasiya, elektrik və qaz şəbəkələri və qurğularının fasiləsiz işinin təmin olunmasına nəzarət etmək, bu sahədə təsərrüfat xidmətlərinin fəaliyyətini əlaqələndirmək;

3.1.10. idarə etdiyi çoxmənzilli binaların və tikintisini təşkil etdiyi digər obyektlərin, habelə müvafiq ərazidə sosial-mədəni obyektlərin qış mövsümünə istismara hazırlıq işlərinin həyata keçirilməsi üçün müvafiq tədbirlər görmək;

3.1.11. müvafiq ərazidə müqavilə əsasında isti su və istilik təchizatı xidmətlərini göstərmək və bu xidmətlərə (o cümlədən bu Nizamnamənin 3.1.3-cü yarımbəndində göstərilən hallarda) görə haqq almaq;

3.1.12. müvafiq ərazidə yaşayış məntəqələri ərazilərinin abadlaşdırılması və yaşıllaşdırılması işini və yaşıllıqların mühafizəsini təşkil etmək;

3.1.13. müvafiq ərazidə yerləşən, ümumi istifadədə və balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək;

3.1.14. müvafiq ərazidə məhəllələrin, küçələrin, meydanların, parkların və yaşıllıq zonalarının işıqlandırılması sisteminin istismara yararlı vəziyyətdə olması işini təşkil etmək;

3.1.15. Xidmətə ayrılan məqsədli vəsaitlər hesabına Azərbaycan Respublikası Prezidentinin tapşırığı əsasında müvafiq ərazidə sosial təyinatlı və digər obyektlərin tikintisinin təşkilini, onların tikintisi üzrə sifarişçi funksiyalarının yerinə yetirilməsini, habelə bu qaydada tikilmiş obyektlərin qorunmasını, saxlanılmasını və təyinatı üzrə istifadəsini təmin etmək;

3.1.16. müvafiq ərazidə bayramlara və digər əlamətdar hadisələrə, habelə anım günlərinə həsr olunmuş ictimai tədbirlər keçirmək, tərtibat işləri aparmaq və digər zəruri tədbirlər görmək;

3.1.17. müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar digər dövlət orqanlarının (qurumlarının) sifarişi ilə aparılan tikinti işlərinə zəruri təşkilati dəstək göstərmək;

3.1.18. müvafiq ərazidə dövlət və bələdiyyə mülkiyyətində olan tarix və mədəniyyət abidələrinin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası işlərinə zəruri təşkilati dəstək göstərmək;

3.1.19. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.20. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.21. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.22. Xidmətin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.23. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Xidmətin əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.24. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.25. Xidmətə ayrılan büdcə vəsaitindən (o cümlədən işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi üçün), kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.26. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və Xidmətin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.27. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.28. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.29. Xidmətin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.30. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Xidmətin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər vermək;

3.2.3. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.5. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.6. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.7. Xidmətin əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.8. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.9. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.10. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.11. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Xidmətin idarə olunması**

4.1. Xidmət öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Xidmətin idarəetmə orqanları Müşahidə Şurası və İcraçı direktordur.

4.3. Müşahidə Şurası (bundan sonra – Şura) Xidmətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

4.4. Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 5 (beş) üzvdən – Şuranın sədrindən və digər 4 (dörd) üzvdən ibarətdir.

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

4.6. Şura qərar qəbul etməkdə müstəqildir.

4.7. Şuranın vəzifələri aşağıdakılardır:

4.7.1. təsisçi səlahiyyətlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təkliflər vermək və müvafiq sənədlər (o cümlədən Xidmətin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.7.2. Xidmətin inkişaf istiqamətlərini, strateji məqsədlərini və planlarını müəyyən etmək;

4.7.3. Xidmətin fəaliyyətinə nəzarət etmək;

4.7.4. Xidmətin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək, o cümlədən Xidmətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.7.5. Xidmətin təsərrüfat cəmiyyətlərinin yaradılması və onlarda iştirak barədə, həmçinin Xidmətin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.7.6. Xidmətin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.7.7. Xidmətin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə Xidmətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

4.7.8. İcraçı direktorun fəaliyyətinə nəzarət etmək və onun fəaliyyətini yoxlamaq;

4.7.9. Şura üzvlərinin və İcraçı direktorun müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.7.10. Xidmətin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.7.11. Xidmətin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.7.12. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.7.13. Xidmətdə daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.7.14. Xidmətin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Xidmətin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.7.15. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

4.8. Şuranın sədri rübdə azı bir dəfə Şuranın iclaslarını çağırır və iclaslara sədrlik edir. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya İcraçı direktor çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.9. Şuranın üzvlərinə, İcraçı direktora və Şuranın iclaslarına dəvət olunan şəxslərə Şuranın iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.10. Şuranın iclasında İcraçı direktor da iştirak edə bilər.

4.11. İclasın gündəliyinə Şuranın hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.12. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.13. Şuranın iclaslarının nəticəsi Şura üzvlərinin və Şuranın katibinin imzaladıqları iclas protokolunda əks olunmaqla rəsmiləşdirilir. Şuranın katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Protokol Şura tərəfindən təsdiq edilərək İcraçı direktora göndərilir.

4.14. Şuranın katibini Şuranın sədri Şura üzvü olmayan əməkdaşlar sırasından təyin edir və katib Şuranın sədrinə hesabat verir.

4.15. Şuranın katibi:

4.15.1. Şuranın iclaslarını təşkil edir;

4.15.2. bu Nizamnamənin 4.9-cu bəndində nəzərdə tutulan vəzifəni icra edir;

4.15.3. Şuranın iclaslarının protokolunu tərtib edir və imzalanmaq üçün Şuranın üzvlərinə təqdim edir;

4.15.4. Şuranın qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şuranın sədrinə təqdim edir;

4.15.5. Şuranın qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

4.16. Şuranın sədri:

4.16.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir, habelə özünün və İcraçı direktorun qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.16.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

4.16.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya İcraçı direktorun xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

4.16.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.17. Şura sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə Şuranın üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.18. Şuranın üzvləri:

4.18.1. Şuranın səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.18.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.18.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.18.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılmaq barədə təkliflər verirlər;

4.18.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.19. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.20. Xidmətin cari fəaliyyətinə rəhbərliyi İcraçı direktor həyata keçirir. İcraçı direktor Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. İcraçı direktorun onun təqdimatı əsasında Şura tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.

4.21. İcraçı direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə onun müavini icra edir.

4.22. İcraçı direktor və onun müavini adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.23. İcraçı direktorun vəzifələri aşağıdakılardır:

4.23.1. Xidmətin fəaliyyətini təşkil etmək;

4.23.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər vermək və sənədlər təqdim etmək;

4.23.3. Şuranın qərarlarını icra etmək;

4.23.4. aidiyyəti şəxslə dəyəri Xidmətin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.23.5. Xidmətin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.23.6. bu Nizamnamənin 3.1.25-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.23.7. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırmaq;

4.23.8. bu Nizamnamənin 3.1.19-cu və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.23.9. Xidmətin cari fəaliyyətinə rəhbərlik və onu təmsil etmək;

4.23.10. Xidmətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər vermək;

4.23.11. Xidmətin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil etmək, yoxlamaq və buna nəzarəti həyata keçirmək;

4.23.12. özünün və Xidmətin struktur bölmələrinin qanunvericiliyə zidd olan qərarlarını ləğv etmək;

4.23.13. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Xidmətin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq etmək;

4.23.14. Xidmətin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil etmək;

4.23.15. bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, Xidmətin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul etmək;

4.23.16. Xidmətin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət etmək;

4.23.17. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Xidmətin adından əməliyyatlar aparmaq, müqavilələr bağlamaq və onların yerinə yetirilməsini təmin etmək;

4.23.18. Xidmətin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaratmaq;

4.23.19. Xidmətin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;

4.23.20. Xidmətdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin etmək;

4.23.21. Xidmətdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin etmək;

4.23.22. Şuranın səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

**5. Xidmətin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Xidmətin nizamnamə fondunun məbləği 500 000 (beş yüz min) manatdır.

5.2. Xidmətin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Xidmət öz əmlakından yalnız Nizamnaməsində müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Xidmət balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Xidmət qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Xidmətin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Xidmətin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Azərbaycan Respublikası Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

5.6. Xidmətin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısında nəzərdə tutulmuş mallarının (işlərinin, xidmətlərinin) qiymətləri tənzimlənən qiymətlərə aiddir.

**6. Xidmətin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Xidmətin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin bu Nizamnamə ilə müəyyən edilmiş qaydada Xidmətin idarəetmə orqanları həyata keçirirlər.

6.2. Xidmətin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

**7. Xidmətdə uçot və hesabat**

7.1. Xidmət "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Xidmət "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Xidmət idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Xidmət öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Xidmətin ləğvi və yenidən təşkili**

Xidmətin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# Vaşinqtonun "təşəbbüsü" və Bakının qətiyyəti

(əvvəli 1-ci səhifədə)

ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller dünən media mənsubları üçün düzənlədiyi brifinqdə bildirdi ki, Birləşmiş Ştatlar Bakı və İrəvan arasında diplomatik nizamlanma prosesi üzərində işi davam etdirir. Qeyd edək ki, əldə olunan ilkin razılaşmaya əsasən, dünən Vaşinqtonda Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri Ararat Mirzoyan, Ceyhun Bayramov və ABŞ Dövlət katibi Antoni Blinken arasında üçtərəfli görüş keçirilməli idi. Amma bu arada Ermənistan XİN-nin mətbuat katibi Ani Badalyan yerli mediaya verdiyi açıqlamasında iki ölkənin xarici işlər nazirləri arasında rəsmi görüş və ya sülh danışıqları barədə razılığın əldə olunmadığını bildirdi.

* * *

"Azərbaycan Ermənistanla sülh prosesinin əsas elementlərinin təşəbbüskarı kimi bölgədə sülh və sabitliyin bərqərar edilməsində maraqlı tərəfdir". Bunu Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov NATO baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina ilə görüşündə deyib. Postmünaqişə dövründə bölgədə mövcud təhlükəsizlik vəziyyətindən bəhs edən C.Bayramov Ermənistan tərəfindən mülki şəxslərə qarşı mina təhdidinin davam etdirilməsi, bu ölkənin sürətlə silahlanması faktına diqqət çəkib. O, sülh sazişinin mətni üzrə əldə edilmiş əhəmiyyətli irəliləyişə baxmayaraq, Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddiaları mövcudluğunu xatırladıb.

Beləliklə, dünən gün ərzində (Bakı ilə Vaşinqton arasında saat fərqi nəzərə alınmaqla –red.) Vaşinqtonda nazirlər arasında və ya Dövlət Departamenti rəsmilərinin iştirakı ilə ikitərəfli danışıqlardan soraq çıxmadı.

Yada salaq ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərini NATO sammitinə dəvəti ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn bu yaxınlarda Bakıya səfərindən sonra elan edib. Ermənistan xarici işlər naziriyi Ararat Mirzoyanın dəvəti dərhal qəbul etdiyini təsdiqlədi, Azərbaycan XİN isə Ceyhun Bayramovun Vaşinqtona səfərini yalnız iyulun 9-da, nazir artıq təyyarəyə mindikdən sonra elan etdi.

Ceyms O`Brayn Bakıya səfərindən sonra keçirdiyi brifinqdə bəyan edib ki, Vaşinqton NATO sammiti çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında sülh sazişi üzrə danışıqların təşkili üzərində işləyir. Amma həmin işin hər iki tərəfin razılığı ilə baş tutacağı əsas şərtdir. Məlum olduğu kimi, təxminən bir il bundan əvvəl ABŞ Dövlət katibi Antoni Blinkenin iştirakı ilə baş tutan sülh danışıqlarından sonra Vaşinqton formatı dayandırılmışdı. Doğrudur, o zaman İrəvan danışıqları Qərb məkanlarında aparmağa üstünlük versə də, Bakı vasitəçisiz, birbaşa danışıqları, neytral üçüncü ölkədə aparılmasını daha effektiv hesab edib.



* * *

Yada salaq ki, Bakı hazırda sülhə əsas maneə kimi Azərbaycana qarşı ərazi iddialarını özündə əks etdirən Ermənistan konstitusiyasını görür. Ermənistan hakimiyyəti yeni konstitusiya üzərində işlədiyini bəyan etsə də, bu işin, aydın məsələdir ki, çox vaxt aparacağı məlumdur. Yaranmış belə qeyri-müəyyən vəziyyətdə tərəflərin ilin sonuna qədər sülh sazişini imzalayacağına ümid varmı? Bu suala kənar ekspertin cavabı maraq doğurduğuna görə, onu oxucularla bölüşürük. Karnegi Fondunun aparıcı analitiki və Cənubi Qafqaz məsələləri üzrə ekspert Tomas de Vaal özəl radiolardan birinə müsahibəsində suala belə cavab verib: "Şans 50-dən 50-yə qədərdir. Məncə, ortada cavabını gözləyən iki böyük sual var. Birincisi, razılaşma əldə oluna bilərmi? İkincisi, bu, nə dərəcədə davamlı olacaq? Düşünürəm ki, bu ehtimal yenə 50–50 olacaq".

Ekspertin fikrincə, Bakının hazırkı tələbi, yeni konstitusiyanın dəyişdirilməsi İrəvan üçün kifayət qədər çətin məsələdir. "Düşünürəm ki, digər problem ondan ibarətdir ki, sülh sazişindən danışsaq belə, sonra orada olmayan bəzi məsələlər ortaya çıxacaq. Məsələn, hazırda, mənim anladığım qədər, Azərbaycanda Zəngəzur dəhlizi adlanan Sünikdən Naxçıvana gedən kommunikasiya marşrutu haqqında mətndə heç nə yoxdur. Bu, yəqin ki, müqavilənin bir hissəsi olmayacaq. Beləliklə, deyə bilərik ki, bu, qarşıda həllini gözləyən çox mürəkkəb bir problemdir. Buna görə də, ola bilsin ki, yaxın gələcəkdə hansısa razılaşma əldə olunsun. Amma hazırda vəziyyət olduqca mürəkkəb olaraq qalır".

Bəli, Bakı sülhə əsas maneə kimi Azərbaycana qarşı ərazi iddialarını özündə əks etdirən Ermənistan konstitusiyasını görür. Tanınmış ekspert hesab edir ki, hər halda, gələcəkdə hansısa bir sənəd imzalansa, çətin ki, tərəflər bütün məsələləri əhatə edəcək genişmiqyaslı sazişə gəlib çıxsınlar. Bu cür sənədlər böyük həcmli olur, adətən, onun özündə hər iki tərəfin işçi qrupları uzun müddət işləyirlər.

* * *

Aydın məsələdir ki, Ermənistanla Azərbaycan arasında onilliklər boyu yığılıb qalmış bir çox tarixi məsələləri tez bir zamanda həll etmək mümkün deyil. Bunu Azərbaycan Prezidenti son çıxışlarının birində birmənalı şəkildə vurğulamışdı. Ona görə də indi tərəflərin imzalaya biləcəyi sənəd özündə ümumi prinsipləri nəzərdə tutan çərçivə sazişi ola bilər.

Bu qənaəti xarici ekspert də bölüşür. Tomas de Vaal söhbətin, əslində, məhz çərçivə sazişindən getdiyini vurğulayıb: "Bu, əsasən iki ölkə arasında münasibətlərin tənzimlənməsi şərtlərini müəyyən edən sazişdir. Bu mənada prinsiplər üzrə razılaşmanın çox problemli olacağını düşünmürəm. Bununla belə, məncə, problemlər ümumi prinsiplərdə deyil, dəqiq təfərrüatlarda yarana bilər".

De Vaalın sözlərinə görə, yaxın vaxtlarda Bakı ilə İrəvan arasında hansısa razılaşma əldə olunacaq, lakin vəziyyət çox çətin olaraq qalır. Onun fikrincə, bu vəziyyətin müsbət çaları odur ki, heç bir tərəf yeni müharibə istəmir.

Sonda ekspert onu da qeyd edib ki, Azərbaycan danışıqlarda vasitəçilərin olmasını istəmir və bu, başadüşüləndir: "Çünki bütün hallarda vasitəçilər öz maraqlarını güdürlər. Ona görə də ideal yol münaqişə tərəflərinin öz aralarında birbaşa razılığa gəlmələridir. Bununla belə, vasitəçilərsiz sülhə nail olmaq da qeyri-real görünür. De Vaal məhz bu səbəbdən hadisələrin aşağıdakı inkişafını ən optimal variant hesab edir: "Bakı və İrəvan əvvəlcə çərçivə sazişi bağlayır, sonra üçüncü tərəflərin dəstəyi ilə detalları hazırlayırlar".

Dünən günün sonuna yaxın Vaşinqtonda ABŞ Dövlət katibi Antoni Blinkenin iştirakı ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla görüşü keçirilib. Bu barədə Azərbaycan XİN "X" sosial şəbəkəsində paylaşım edib. Antoni Blinkenin təşəbbüsü ilə baş tutan görüşdə Azərbaycanla Ermənistan arasında sülh sazişi və münasibətlərin normallaşması məsələləri müzakirə olunub.

Hər halda ən nikbin proqnoz ondan ibarətdir ki, ikitərəfli danışıqlarda müəyyən razılaşma əldə olunacaq, daha sonra beynəlxalq ictimaiyyət ortaq məxrəcə gəlinmiş bütün detalları dəstəkləyəcək və iş bununla tamamlanacaq. Amma Bakı Qafqazın bu uzunömürlü münaqişəsinə son nöqtənin okeanın o tayında deyil, qonşu ölkələrdən birinin ərazisində, hətta şərti sərhəddə qoyulmasını istəyir.

*İmran BƏDİRXANLI*
*XQ*

## Ekspert rəyi



**Rizvan HÜSEYNOV, Qafqaz Tarixi Mərkəzinin direktoru, siyasi şərhçi:**

– Son dövrlərdə ABŞ-nin regionumuza marağı artıb. Ötən ay ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın Ermənistana və Azərbaycana səfərləri və NATO sammitinə dəvət bundan xəbər verir. ABŞ danışıqlar masasında özünü tərəfləri yaxınlaşdıran güc kimi önə çıxarmaq niyyətindədir. Yəni, ABŞ-nin səyləri nəticəsində tərəflərin sülh müqaviləsini imzalamağa daha yaxın olduğunu göstərmək istəyirlər. Halbuki rəsmi Bakı yalnız vasitəçisiz görüşlərdə müsbət irəliləyiş əldə edildiyini, ATƏT-in keçmiş Minsk qrupu formatı və digər görüşlərin problemin həllini illərlə ləngitdiyini dəfələrlə vurğulayıb.

Ağ ev Azərbaycanın Ermənistandan tələblərində kompromisə getməsinə çalışır. ABŞ-nin fəallaşmasının digər səbəbi Azərbaycanın konstitusiya tələbində Ermənistana güzəştə getməsinə nail olmaqdır. Bunun qarşılığında, O'Braynın ölkəmizə səfəri zamanı dediyi kimi, Ağ ev Orta dəhlizin açılmasına hər cür dəstək verəcəyini bir daha təsdiqləyib.

Vaşinqton Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının yer aldığı müddəalara bağlı dəyişikliklərin sonraya saxlanılmasını istəyir. Amma rəsmi Bakı tamamilə haqlı və qətiyyətli şəkildə bu dəyişikliyin dərhal aparılmasını tələb edir. Prezident İlham Əliyev Kanadanın ölkəmizdə yeni təyin edilən səfiri Kevin Hamiltonun etimadnaməsini qəbul edərkən bu tələbi konkret və qəti şəkildə dilə gətirdi.

Vaşinqtonda Ceyhun Bayramov və Ararat Mirzoyan arasında görüş keçiriləcəyi təqdirdə bu məsələlər müzakirə ediləcək. Azərbaycanın mövqeyi qətidir, Ermənistan isə sözügedən dəyişikliklərin hansı formada aparacağı barədə ABŞ ilə məsləhətləşə bilər.

# Dünya heç vaxt Ermənistanda "kəsişməyəcək"

## *İrəvanda "dəyərli tərəfdaş" statusunda qarşılanan USAID-nin rəhbəri yenə anti-Azərbaycan fəaliyyətindən əl çəkmir*

**ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbəri, anti-Azərbaycan mövqeyi ilə ad çıxarmış Samanta Pauer Ermənistana növbəti səfərə gəlib. "Erməni soyqırımı" gününü özünün doğum günü elan edən və Ermənistanda "dəyərli tərəfdaş" fəxri statusu qazanan Samanta Pauer dünən İrəvanda Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanla görüşüb. "Tərəfdaşlar" öz aralarında "dünyanın kəsişməsi" layihəsinin həyata keçirilməsi perspektivlərini gözdən keçiriblər. Erməni mediasının yaydığı xəbərlərdə o da qeyd olunur ki, həmsöhbətlər "Azərbaycanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində yaranmış humanitar vəziyyət" barədə fikir mübadiləsi aparmış, Qriqoryan "fəxri qonağa" hökumətin "Dağlıq Qarabağdan" olan məcburi köçkünlərə yardım üzrə fəaliyyət proqramını təqdim edib. Bundan başqa, tərəflər Ermənistan baş nazirinin ideyası olan "dünyanın kəsişməsi" layihəsinə xüsusi olaraq toxunub, onun həyata keçirilməsi imkanlarını müzakirə ediblər.**

Oxuculara xatırladaq ki, bu, nisbətən qısa müddət ərzində Samanta Pauerin İrəvana ikinci səfəridir. Onun keçən ilin sentyabrında Ermənistana səfəri də təxribat xarakterli bəyanatları ilə yadda qalıb. O zaman xanım Pauer Azərbaycanın işğaldan azad olunmuş ərazilərində "beynəlxalq müşahidə missiyasının yaradılması" təşəbbüsü ilə çıxış etmişdi. USAID sədri İrəvanda keçirdiyi mətbuat konfransında bildirmişdi ki, ABŞ 2020-ci ildən indiyədək Ermənistana 24 milyon dollardan çox humanitar yardım göstərib. Qurumun hesablamalarına görə isə Vaşinqton Ermənistanın dövlət büdcəsini, ümumilikdə, 3,3 milyard dollar artırıb.

Samanta Pauerin İrəvana 10 ay əvvəlki səfəri təkcə humanitar yardım hesabatı ilə məhdudlaşmayıb. O, erməniləri "ABŞ Azərbaycan Ordusunun sentyabrın 19-20-də Qarabağda həyata keçirdiyi "hərbi əməliyyata" adekvat cavab vermək imkanını nəzərdən keçirir" kimi təxribat xarakterli bəyanatla ruhlandırması ilə də yadda qalmışdı. Həmçinin Pauer həmin səfəri zamanı USAID-nin "Qarabağdan olan məcburi miqrantlara" dəstək verəcəyi ilə bağlı pafoslu bəyanatlar da səsləndirmişdi.

Bu kontekstdə qeyd etməyi vacib sayırıq ki, beynəlxalq agentliyin Qarabağ ermənilərinə ictimaiyyətin gözündə "məcburi miqrant" statusu təqdim etməsi istəyindən qaynaqlanan bu məsələdə həddindən artıq cənfəşanlığı heç də təsadüfi deyil. Çünki 2023-cü ilin noyabrında USAID-nin Ermənistan ofisi ABŞ-nin "Qarabağ hadisələrindən zərər çəkənlərə" 4,1 milyon dollardan çox əlavə humanitar yardım ayırdığını elan etdi. Xanım Pauer 2024-cü ilin aprelin 5-də Brüsseldə "üçlər"in həmin məşhur "zirvə görüşü"ndə baş nazir Nikol Paşinyana Ermənistanda həyata keçirilən "institusional islahatlara davamlı dəstəyini" və "Ermənistan hökumətinin gücləndirilməsinə dair proqramlarına müntəzəm şəkildə yardım etməyə" hazır olduğunu bildirib.

***

Erməni mediası yazır ki, Samanta Pauerin İrəvana budəfəki səfəri "USAID-nin islahat gündəmini və Paşinyan hökumətinin ölkənin humanitar dayanıqlığını gücləndirmək səylərini dəstəkləmək məqsədi daşıyır. Yeri gəlmişkən, onu da qeyd edək ki, Pauer artıq USAID tərəfindən maliyyələşdirilən Ermənistanın "Artsaxın dadı" fast-fud obyektinə də baş çəkib və hətta burada "ənənəvi Artsax yeməyi" hazırlamaqla kulinariya sənətinin "möcüzəsini" nümayiş etdirməyə nail olub.

Buradaca maraqlı siyasi məqamı xatırlatmağımız yerinə düşər. 2023-cü ilin sentyabrında Ermənistanda olarkən Qarabağın erməni icmasının nümayəndələri ilə görüşməsi, amma ondan əvvəl Bakıya səfəri zamanı azərbaycanlı qaçqın və məcburi köçkünlərlə görüşməkdən imtina etməsi USAID rəhbərinin hələ də anti-Azərbaycan siyasətindən əl çəkmədiyinin göstəricisidir.



Samanta Pauerin Qarabağdakı separatçı xunta rejiminin keçmiş "dövlət naziri" Ruben Vardanyanla sıx əlaqədə olduğu, "fırıldaqçı milyarderin" təsisçisi və sponsoru olduğu "Avrora" mükafatı komitəsinin üzvü seçilməsi yerli ekspertlərin diqqətindən yayınmayıb.

Onu da qeyd edək ki, USAID özünün təqribən 27 milyard dollarlıq büdcəsi ilə dünyanın ən böyük yardım təşkilatı hesab olunur. Təkcə son iki il ərzində bu beynəlxalq yardım təşkilatının büdcəsindən "müxtəlif ölkələrdə vətəndaş cəmiyyəti quruculuğunu dəstəkləmək üçün" 9 milyard dollar vəsait ayrılıb. Amma bu zaman ABŞ MKİ ilə sıx əməkdaşlıqda olan USAID-nin "demokratik inkişafı dəstəkləmək" şüarı altında Afrikanın və Yaxın Şərqin müxtəlif ölkələrindəki müxalif qüvvələri dəstəkləmək üçün xüsusi donor fondları və yardım mexanizmləri yaradılıb. Həmin fondların şübhəli QHT-lərə qrantları hansı yollarla çatdırması isə hazırda araşdırılır.

***

İlkin missiyası qanuni hakimiyyətlərə, xüsusən də Cənubi Qafqaz ölkələrinə qarşı cəmiyyətdə etiraz əhval-ruhiyyəsi formalaşdırmaq olan USAID-nin ötən ilin oktyabrında Gürcüstanda baş vermiş siyasi qalmaqalla birbaşa əlaqəsinin olduğu deyilir. Təsdiqlənməmiş məlumata görə, USAID bu ölkədə dövlət çevrilişinə cəhd etmək istəyərkən yaxalanıb. Gürcüstan xüsusi xidmət orqanlarının sentyabrın 26-29-da Tbilisidə təlim materiallarının bir hissəsini dərc etdiyi bu agentlik vasitəsilə çevrilişin hazırlanmasına dair məlumatlar mediaya da sızmışdı. Həmin məlumatlarda USAID-nin keçirdiyi təlimlərdə müxalif yönlü ictimai fəallara hakimiyyət və hüquq-mühafizə orqanları ilə qarşıdurmanın törədilməsi yolları öyrədilirmiş.

USAID Azərbaycanda da pozuculuq, təxribatçı fəaliyyəti ilə diqqət çəkməyi "bacarıb". İntəhası, Azərbaycan xalqının gözaçıqlığı, hakimiyyətin sayıqlığı sayəsində bu üzdəniraq təşkilatın planları alt-üst oldu, vətəndaş cəmiyyəti üzərindən manipulyasiyalar etmək niyyətlərinin qarşısı qətiyyətlə alındı. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev keçən ilin noyabrında USAID-nin rəhbəri Samanta Pauerin avantürist bəyanatlarını və hərəkətlərini şərh edərək, "X" sosial şəbəkəsində bunları yazmışdı: "Artıq maskalar yırtılıb! Bundan sonra USAID-nin Azərbaycanda fəaliyyət göstərməsi üçün yer yoxdur!".

Beləliklə, USAID-nin Azərbaycana qarşı "itilədiyi" dişləri tamamilə qırılıb. Yəqin, xanım Pauer həm də bu "diplomatik uğursuzluğuna" görə özünün anti-Azərbaycan mövqeyindən geri durmaq barədə düşünmür. Məhz bu səbəbdən İrəvan USAID rəhbərini arzuedilən qonaq və "dəyərli tərəfdaş" kimi qarşılayır. Vaşinqtonun yaratdığı və maliyyələşdirdiyi bu strukturun casusluq fəaliyyətini yaymaq baxımından Ermənistan USAID üçün "etibarlı dayağa" çevrilib. Bu təşkilatın İrəvanın qərbyönümlü meyilləri fonunda Ermənistandakı aktiv fəaliyyətinin regional dövlətlərin maraqlarına qarşı yönəlməsi artıq heç kəsdə şübhə doğurmur.

Daha bir vacib məqam USAID-nin Qarabağ erməniləri məsələsini gündəmdə saxlamağa çalışmaqla, Ermənistan ictimai rəyi üzərində manipulyasiya etməklə Bakı və İrəvan arasında ümidlərin artdığı sülh prosesini pozmağa çalışmasıdır. Bəs, Ermənistan USAID-nin bu "ayı xidmətindən" faydalanırmı? Müsbət cavabdan məhrum sual həm də ondan xəbər verir ki, İrəvan ABŞ-nin bu müstəvidəki oyununda yalnız "maşa", "siyasi marionet" kimi qibtəolunmaz statusa malik ola bilər. Bundan öz faydasını güdən Birləşmiş Ştatlar fürsətdən maksimum yararlanaraq, regionda çeşidli maraqlarını müdafiə etməyi hədəfləyir. Onun nə Ermənistanda demokratik dəyərlərin inkişafı, nə də onu qlobal enerji layihələrinə qoşmaq qayğısı var.

Əgər İrəvan isteblişmenti Şərqdən Qərbə uzanacaq və Azərbaycandan keçəcək nəqliyyat dəhlizlərinin Ermənistanda "kəsişəcəyinə" ümid edirsə, bu gedişatla onun ideyası elə kağız üzərində qalacaq. Yəni sülh sazişinə Bakının əlavə etdiyi şərtləri yerinə yetirməyincə Ermənistan heç vaxt "dünyanın kəsişdiyi" nöqtəyə çevrilməyəcək.

*İ.HƏSƏNQALA*
*XQ*




# Mərkəzi Seçki Komissiyasında müşavirə





(əvvəli 1-ci səhifədə )

MSK-nın sədri Məzahir Pənahov tədbiri giriş sözü ilə açaraq xatırladıb ki, Azərbaycan Prezidenti iyunun 28-də altıncı çağırış Milli Məclisin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla altıncı çağırış Milli Məclis buraxılıb və sentyabrın 1-nə növbədənkənar seçkilər təyin edilib. Seçkilər təyin olunduqdan sonra bu prosesə məsul olan orqan kimi MSK fəaliyyətə başlayıb və tədbirlər planı hazırlanaraq ictimailəşdirilib. MSK təqvim planına uyğun olaraq işlərini qurur.

M.Pənahov ilk dəfə ölkəmizin bütün suveren ərazilərində keçiriləcək Milli Məclisə seçkilərin əlamətdar hadisə olduğunu deyib. O qeyd edib ki, dövlətimizin başçısının müvafiq Sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”na əsasən, dairə seçki komissiyalarının sədrləri üçün təşkil olunan müşavirə MSK-nın bütün maarifləndirmə layihələrinin fövqündə dayanır.

O, xüsusilə vurğulayıb ki, ölkə rəhbərliyinin ciddi mövqeyi, möhkəm siyasi iradəsi və seçki komissiyalarının iş şəraitinin yaxşılaşdırılması, maddi-texniki bazasının gücləndirilməsi üçün böyük diqqət və qayğısı seçkilərin azad, ədalətli və şəffaf keçirilməsini şərtləndirən ən mühüm amillərdir. M.Pənahov bütün bunlara görə Mərkəzi Seçki Komissiyası və on minlərlə aşağı seçki komissiyası üzvləri adından ölkə rəhbərliyinə bir daha minnətdarlığını ifadə edib.

MSK sədri diqqətə çatdırıb ki, həyata keçirilən uğurlu siyasət nəticəsində respublikada bərqərar olan möhkəm ictimai-siyasi sabitlik seçkilərin yüksək səviyyədə hazırlanıb keçirilməsinə hərtərəfli imkan yaradır. Azərbaycanda dairə və məntəqə seçki komissiyaları üçün yaradılan şərait yüksək səviyyədə olduğunu diqqətə çatdıran M.Pənahovun sözlərinə görə, parlament seçkilərinin keçirilməsi üçün ölkədəki 125 seçki dairəsi üzrə 6400-dən çox seçki məntəqəsində seçicilərin səsverməsi üçün bütün lazımi şərait yaradılır.

“Cari il fevralın 7-də prezident seçkiləri müstəqil Azərbaycan tarixində ilk dəfə bütün ölkə ərazisində keçirildi. Biz bu seçkiləri “Zəfər seçkisi” adlandırdıq. Sentyabrın 1-də keçiriləcək parlament seçkilərində də işğaldan azad edilmiş bölgələrdə yaşayan vətəndaşlar ilk dəfə səs verəcəklər. Qeyd edim ki, 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində işğaldan azad olunmuş bölgələrdə daimi əsaslarla 26 seçki məntəqəsi yaradılmışdı. Eyni zamanda, müvəqqəti əsaslarla yaradılan məntəqələrimiz də var idi. Ümumilikdə işğaldan azad edilmiş ərazilərdə 47 məntəqə fəaliyyət göstərirdi. Parlament seçkilərində həmin bölgələrdə məntəqələrin sayı kifayət qədər artacaq”, - deyə MSK sədri bildirib.

M.Pənahov diqqətə çatdırıb ki, Seçki Məcəlləsinin tələblərinə görə, beynəlxalq müşahidəçiləri dəvət etmək üçün Azərbaycanda üç səlahiyyətli qurum var. Bunlar Milli Məclis, Xarici İşlər Nazirliyi və Mərkəzi Seçki Komissiyasıdır. Milli Məclis beynəlxalq miqyasda parlament nümayəndə heyətlərini, XİN ali müşahidəçiləri dəvət edir. Seçki ilə bağlı əməkdaşlıq etdiyimiz qurumları isə Mərkəzi Seçki Komissiyası dəvət edir. O bildirib ki, geniş coğrafiyanı əhatə edən beynəlxalq müşahidəçilər üçün dəvətlər göndərilir.

“Azərbaycan yeganə ölkədir ki, seçkilərdə media subyektlərinin nümayəndələri heç bir qurumdan icazə almırlar və onlar seçkilərin işıqlandırılması prosesində sərbəst şəkildə iştirak edirlər”, - deyə Məzahir Pənahov fikirlərini yekunlaşdırıb.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev “Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi prosesində yerli icra orqanlarının vəzifələri və onların seçki komissiyaları qarşılıqlı fəaliyyəti” mövzusunda çıxış edərək 2024-cü il sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərini ölkəmizin ictimai-siyasi həyatında ikinci ən böyük mühüm hadisə kimi dəyərləndirib. Prezidentin köməkçisi vurğulayıb ki, bundan əvvəl Azərbaycan xalqı prezident seçkilərində layiqli namizədinə səs verib və fevralın 7-də keçirilmiş prezident seçkiləri müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə yazılıb.

Zəfərdən sonra ölkəmizin işğaldan azad edilmiş ərazilərdə böyük miqyasda bərpa və quruculuq işlərini apardığını, insanların doğma torpaqlarına qayıtdıqlarını bildirən Z.Nağdəliyev deyib ki, Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, parlament seçkilərinin mütəşəkkil qaydada, azad və şəffaf şəkildə keçirilməsi təmin edilməlidir.

“Milli Məclisə seçkilərin yüksək səviyyədə keçirilməsi prosesində hər birimizin üzərinə böyük məsuliyyət düşür. Çalışmalıyıq ki, seçkilər həm ölkədə, həm də beynəlxalq miqyasda yaxşı mənada səs salsın. Məqsədimiz Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, seçkilərin mütəşəkkil qaydada, azad və şəffaf şəkildə keçirilməsinin təmin olunmasıdır”, - deyə o qeyd edib.

Prezidentin köməkçisi bildirib ki, işğaldan azad edilmiş ərazilərdə əvvəlcə 26 seçki məntəqəsi olduğu halda, indi daha 8 seçki məntəqəsi yaradılıb. Yerlərdə seçkilərin mütəşəkkil keçirilməsi üçün məntəqə seçki komissiyalarında vəziyyətlə maraqlandıqlarını diqqətə çatdıran Z.Nagdəliyev komissiyaların binalarının hər cür lazımi şəraitlə təmin olunmasının vacibliyini bildirib. Prezident Administrasiyasının şöbə müdiri 2022-2024-cü illərdə ölkə ərazisində yerli icra hakimiyyətləri tərəfindən 2,5 milyon ev təsərrüfatına baxış keçirildiyini və əldə edilmiş uçot məlumatlarının tam təhlil olunduğunu da diqqətə çatdırıb. Bildirib ki, qeyd olunan məlumatlar əsasında seçici siyahılarının dəqiqləşdirilməsi aparılıb.

Onun sözlərinə görə, ölkə üzrə 125 seçki dairəsində səsvermə hüququna malik olan şəxslərin sayı 1 milyon 153 min nəfərdən 22,2 faiz artaraq bu ilin 28 iyun tarixinə 6 milyon 334 min 444 nəfər təşkil edib.

Ölkəmizdə 125 seçki dairəsi üzrə seçicilərin sayının xeyli artdığını qeyd edən Z.Nağdəliyev seçkilərədək seçicilərin siyahısının dürüstləşdirilməsinin vacibliyini vurğulayıb. Həmçinin deyib ki, avqustun 9-dək seçki dairələri üzrə açıq və qapalı yerlərin müəyyənləşdirilməsi başa çatdırılacaq.

Prezidentin köməkçisi seçki komissiyalarının rəhbərlərinə tövsiyə edib ki, hər hansı mənfi hallar aşkarlandığı halda müvafiq ünvanlara müraciət etsinlər.

“Seçki hüququnun konstitusion əsasları, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçki hüququnun realizə mexanizmləri” mövzusunda çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev vurğulayıb ki, seçki prosesi dinamik və inkişaf edən prosesdir. Seçki demokratik cəmiyyətin mühüm amillərindən biridir. Müasir Azərbaycanda demokratik seçki ənənələrinin formalaşması 1995-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən qəbul edilmiş Konstitusiyada əksini tapıb.

Seçki prosesinin doğru, şəffaf və açıq-aydın keçirilməsinin əsas amillərdən biri olduğunu qeyd edən Konstitusiya Məhkəməsinin sədri vurğulayıb: “Seçki prosesində məhkəmələrin iştirakını siyasi çərçivədə qiymətləndirmək olmaz. Məhkəmələrin prosesdə iştirakı ona hesablanıb ki, cəmiyyət və dövlət insanların seçki hüququnun təmin edilməsində maraqlıdır. Qanuna riayət etmək seçkilərin uğurlu keçirilməsi üçün ən vacib məqamlardan biridir”.

Baş prokurorun birinci müavini Elçin Məmmədov “Seçki iştirakçılarının hüquqlarının pozulması və qanunvericiliklə müəyyənləşdirilmiş məsuliyyət tədbirləri” mövzusunda fikirlərini bölüşərək seçki prosesində prokurorluq orqanlarının fəaliyyətindən danışıb və maarifləndirmə tədbirlərinin əhəmiyyətini qeyd edib.

“Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, seçki komissiyalarının işinə müdaxilə edənlər cinayət məsuliyyətinə və inzibati məsuliyyətə cəlb olunurlar. Bunun üçün konkret qayda və normalar var. Məcəllənin 112-ci maddəsinə uyğun olaraq seçicilərin və namizədlərin seçki hüquqlarının pozulduğu halda müvafiq quruma şikayət etmək hüququ var”, - deyə o bildirib.

Baş prokurorun birinci müavini bildirib ki, Cinayət Məcəlləsinə uyğun olaraq, seçki prosesinə maneə yaradanlar məsuliyyətə cəlb edilirlər.

“İnanırıq ki, Azərbaycan vətəndaşları növbədənkənar parlament seçkilərində fəal iştirak edərək layiqli namizədlərinə səs verəcəklər”, - deyə E.Məmmədov diqqətə çatdırıb.

“Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə ədliyyə orqanlarının rol və vəzifələri” mövzusunda fikirlərini bölüşən ədliyyə nazirinin müavini Abiddin Hüseynov vurğulayıb ki, sentyabrın 1-nə təyin olunan növbədənkənar parlament seçkilərinin ən böyük özəlliyi Azərbaycanın bütün ərazilərində keçirilməsidir.

Nazir müavini bildirib ki, seçkilərin milli qanunvericiliyə uyğun keçirilməsi məsələsi qarşımızda mühüm vəzifələr qoyur. Prosesdə ədliyyə orqanlarının vəzifələrindən danışan A.Hüseynov seçkilərdə vətəndaşların fəal iştirakını qeyd edib. Bildirib ki, nazirliyin seçki prosesində vəzifələrindən biri də penitensiar müəssisələrdə olanların seçki prosesində iştirakının təmin edilməsidir. Onun sözlərinə görə, Azərbaycanda penitensiar müəssisələrdə cəza çəkən məhkumların səsvermə hüququ tam təmin edilir.

“Penitensiar müəssisələrdə keçirilən seçkilər təlimata uyğun aparılır və xüsusi komissiya yaradılır. Seçki günü səsverməni izləmək üçün media subyektləri cəlb olunurlar”, - deyə o bildirib. Seçki siyahılarının dürüstləşdirilməsində Ədliyyə Nazirliyinin də iştirak etdiyini diqqətə çatdıran nazirlik rəsmisi doğum və ölüm faktları ilə məlumatların dəqiqləşdirilməsi məsələsinə toxunub. Qeyd edib ki, məlumatlar Səhiyyə Nazirliyi ilə əlaqəli şəkildə reyestrdə yoxlanılır.

Nazir müavini qeyd edib ki, notariat ofisləri də seçki prosesində sənədlərin təsdiqlənməsi və digər aidiyyəti proseslərdə iştirak edir.

Müşavirənin sonunda Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov dairə seçki komissiyalarının sədrləri ilə seçki prosesi ilə bağlı söhbət aparıb və tövsiyələrini verib.

**XQ**

# Namizədlər sənədlərini DSK-ya təqdim edirlər

**Bu il sentyabrın 1- də keçiriləcək parlament seçkilərinə hazırlıq işləri davam edir. Deputat mandatı qazanmaq uğrunda mübarizə gündən-günə güclənir. Artıq bir neçə gündən sonra deputatlığa namizədlər zəruri olan seçki sənədlərini DSK-lara təqdim etməyə başlayacaqlar. Bu, Mərkəzi Seçki Komissiyasının “Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı”nda da öz əksini tapıb.**



Seçki Məcəlləsinə əsasən, irəli sürülmüş namizədlərin qeydə alınması üçün namizəd və ya siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi səsvermə gününə ən çoxu 50 və ən azı 30 gün qalmış saat 18:00-dək müvafiq seçki komissiyasına irəli sürülmüş namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələrini, seçici imzaları toplanmasının yekunu haqqında Mərkəzi Seçki Komissiyasının müəyyənləşdirdiyi formada tərtib edilmiş protokolun 2 nüsxəsini, Məcəllənin 53.3-cü və 54.8-ci maddələrinə uyğun olaraq namizəd haqqında təqdim edilmiş məlumatlarda dəyişikliklər barədə bildirişi, namizədin gəlirlərinin miqdarı və mənbələri barədə məlumatı, mülkiyyət hüququ əsasında namizədə məxsus əmlak barədə məlumat və namizədin ilkin maliyyə hesabatını (seçici imzaları toplanmasının təşkilinə sərf edilən vəsait haqqında məlumatlar göstərilməklə) təqdim etməlidir.

### İşğaldan azad edilmiş ərazilərdə əlavə seçki məntəqələri formalaşdırılıb

İşğaldan azad edilmiş ərazilərdə məskunlaşan, eləcə də uzunmüddətli bərpa, tikinti-quruculuq və abadlıq işlərində çalışan çoxsaylı seçicilərin seçki hüquqlarının təmin edilməsi prioritet vəzifələrdəndir. Keçmiş məcburi köçkün soydaşlarımızın dədə-baba yurdlarına qayıtmaları nəticəsində həmin ərazilərdə məskunlaşanların sayı getdikcə çoxalır. Bu baxımdan həmin ərazilərdə yeni seçki məntəqələrinin yaradılması zərurətə çevrilib.

MSK sədrinin müavini Rövzət Qasımov bildirib ki, azad olunmuş ərazilərdə 8 əlavə seçki məntəqəsinin yaradılması qərara alınıb. Növbədənkənar parlament seçkilərində 34 daimi seçki məntəqəsi fəaliyyət göstərəcək. R.Qasımovun sözlərinə görə, azad olunmuş ərazilərdə müvəqqəti seçki məntəqələri də yaradılacaq.

Azad edilmiş ərazilərdə prezident seçkilərində 26 daimi, 21 müvəqqəti seçki məntəqəsi fəaliyyət göstərmişdi.

### ATƏT Azərbaycanda seçkiləri müşahidə edəcək

Azərbaycanda keçirilən seçkilər həmişə beynəlxalq aləmin diqqət mərkəzində olub. Bu il keçiriləcək növbədənkənar parlament seçkilərinin də böyük maraq doğuracağı istisna deyil. ATƏT PA-nın mətbuat xidmətinin yaydığı məlumatda bildirlir ki, qurumun nümayəndələri sentyabrda keçiriləcək parlament seçkiləri ilə bağlı müşahidəçilər missiyasının formalaşdırılması üçün hazırlıq işlərinə başlayıb.

Məlumatda bildirilir ki, ATƏT PA seçkilərə dəvət aldığını təsdiqləyib və missiya göndərməyi planlaşdırır. Təşkilati işlərə yenicə başlanılıb. Müşahidəçilərin sayı son qeydiyyat tarixindən sonra, yəni seçki gününə bir neçə həftə qalmış müəyyən ediləcək. Həmçinin qeyd edilib ki, seçki günü ATƏT PA missiya rəhbərlərinin iştirakı ilə mətbuat konfransı keçirəcək.

### 17 siyasi partiyanın səlahiyyətli nümayəndəsi təsdiqlənib

MSK-dan verilən məlumata görə, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak etmək üçün indiyədək 156 nəfər deputatlığa namizədliyini irəli sürüb. Onlardan 71 nəfərin namizədliyinin irəli sürülməsi təsdiqlənib.Bir nəfər öz ərizəsi ilə seçkilərə qatılmaqdan imtina edib.

MSK 17 siyasi partiyanın 458 səlahiyyətli nümayəndəsini təsdiqləyib.

Artıq seçkiləri izləmək istəyən müşahidəçilər də müraciət edirlər. Bu vaxta qədər 128 nəfər müşahidə aparmaq üçün müraciət edib və onlar müsbət cavab alıblar.

***Hazırladı:***
***Əliqismət BƏDƏLOV***
***XQ***

# Seçkiyə maneə yaradan məsuliyyətə cəlb edilir

**“İnanırıq ki, Azərbaycan vətəndaşları növbədənkənar parlament seçkilərində fəal iştirak edərək layiqli namizədlərinə səs verəcəklər”.**

Bunu Baş prokurorun birinci müavini Elçin Məmmədov növbədənkənar parlament seçkiləri ilə əlaqədar dairə seçki komissiyalarının sədrləri üçün keçirilən müşavirədə səsləndirib.

Seçki prosesində prokurorluq orqanlarının fəaliyyətindən danışan E.Məmmədov maarifləndirmə tədbirlərinin əhəmiyyətini qeyd edib.

“Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, seçki komissiyalarının işinə müdaxilə edənlər cinayət məsuliyyətinə və inzibati məsuliyyətə cəlb olunurlar. Bunun üçün konkret qayda və normalar var. Məcəllənin 112-ci maddəsinə uyğun olaraq seçicilərin və namizədlərin seçki hüquqlarının pozulduğu halda müvafiq quruma şikayət etmək hüququ var”.



E.Məmmədov vurğulayıb ki, Cinayət Məcəlləsinə uyğun olaraq, seçki prosesinə maneə yaradan məsuliyyətə cəlb edilir.

***XQ***

# Azərbaycanın yeni sınağı: informasiya müharibəsinin "iç cəbhəsi"

III məqalə

*Ya göründüyün kimi ol, ya olduğun kimi görün.*

*Mövlanə Cəlaləddin Rumi*



## "Kripto lulliçilik" və elm

İlk baxışdan hər bir vətəndaşın tarixi savaşın iştirakçısı olması fikri abstrakt məfhum təsiri bağışlaya bilər. Lakin müasir cəmiyyətlər haqqında mövcud olan elmi təsəvvürlərin bir özəlliyi prizmasında mənzərə tamamilə inandırıcı və praktiki məzmunu olan reallıq kimi görünür.

Müasir elmi yanaşmalarda (Qərbdə formalaşmış F.Q.) belə bir metodoloji xüsusiyyət vardır: Ən kiçik ən böyük ola bilər. Bu, ümumiyyətlə, sosial həyatda proseslərin qeyri-xətti ("kiçik təsir kiçik nəticə, böyük təsir böyük nəticə verir" prinsipinin özünü doğrultmadığı situasiya) mahiyyətdə olması ilə bağlıdır. Onun məntiqi əsası isə əsrlərdir ki, Qərb fəlsəfi və elmi təfəkküründə hakim olan "fərqləndirmə" prinsipinə dayanır.

Orta əsrlərdə Raymond Lulli qərblilərin fərqləndirmə təfəkkür qaydasını xristian dini düşüncəsi üçün ümumiləşdirərək belə bir tezis formalaşdırdı: "Dünyanın həqiqətləri xristianlıqdadır və bütün digər dinlər bunu qəbul etməlidirlər. Bunun üçün xristian alimlər məntiq, fəlsəfə və konkret elmlə dünya hadisələrini xristian həqiqətlərinin təsdiqi kimi öyrənməlidirlər. Bununla buddizm, iudaizm (yaxadut), İslam və başqa dinlər xristian həqiqətlərini elmi həqiqət kimi qəbul etməlidirlər!"

R.Lulli bu proqramın "kriptotəlimi"ni yaratdı. Orada hansı üsulla fəlsəfi və elmi təfəkkürün xristian həqiqətlərini elmi libasda təqdim etməli olduğu göstərilmişdir (bu barədə Frensis Yeytsin tədqiqatı vardır). Lakin sonralar bu yanaşma, ümumiyyətlə, insanın elmi yanaşması kimi universallaşdırıldı, maskalandı və təhlükəli təbliğat, təşviqat fenomeninə çevrildi. Avropanın məşhur filosoflarının yaradıcılığında bu kriptoluq ciddi yet tutur.

Məsələn, M.Leybnitsin, F.Bekonun və ya R.Dekartın fikirlərinə bir qədər başqa bucaq altında baxanda "lulliçiliyi" görə bilərsən. Lakin bu mövqeni indi kimsəyə sübut etmək müşkül məsələdir. Buna baxmayaraq, məsələyə konkret informasiya müharibəsi və ümumiyyətlə, müasir mərhələdə təbliğatın söykəndiyi məntiq pizmasında baxanda, bir sıra mühüm məqamlar aydın olur.

## Fərqlənənləri fərqləndir!

Yuxarıdakı qısa təsvir etməyə çalışdığımız qərblilərin təfəkküründə baza tezisinin "fərqləndir" çağırışının olması əsrlərdir ki, bütün dünyada həlledici təsirə malikdir. Bu barədə P.Feyerabend, B.Anderson, O.Şpenqler, M.Maklüyen, F.Yeyts, P.Hatton, Q.D.Peyc və başqaları müxtəlif kontekstlərdə yazmışlar. XX əsrin ikinci yarısında isə ingilis riyaziyyatçısı və mühəndisi Spenser Braun "forma" adlı məntiq yaratdı ki, bu da faktiki olaraq "fərqliliklərin fərqləndirilməsi" üsulunu elmi təfəkkürün mərkəzinə gətirdi. Sosial, siyasi və informasiya aspektlərində bunun mənası ondan ibarətdir ki, Qərb və digər sivilizasiyalar kökdən fərqlidirlər və indi bu fərqlilikləri yenidən fərqləndirmək lazımdır. Fərqlənənlərin ideologiya, təbliğat, informasiya sferalarında yenidən fərqləndirilməsinin fəlsəfi bazasını R.Dekartın subyekt-obyekt bölgüsü təşkil edir. Yəni analiz etmək, bütövü parçalamaq, onu hissələrə ayırmaq üsulu ilə obyekt "adekvat" dərk oluna bilər.

Buradan dərrakəli Qərb elm adamları maraqlı nəticə çıxarmışlar: Qərb fəlsəfi-elmi təfəkkürü, ümumiyyətlə, parçalayıcı, fərqləndirici, hissələri bir-birinə qarşı qoyan və bütövlükdə aqressiv hadisədir. Bundan M.Maklüyen "Qərb insanının özündənrazılığı, riyakarlığı", O.Şpenqler "süqut edən sivilizasiya", B.Anderson "fərqli mədəniyyətləri məhv edən yanaşma", Q.D.Peyc "Qərb təfəkkürünə "öldür" səslənişi xasdır" kimi nəticələr çıxarmışlar.

Bu təfəkkür tərzini birbaşa sosial mühitə, dövlətlərarası münasibətlərə, fərqli mədəniyyətlərə proyeksiya etdikdə ümumi mənzərə aşağıdakı kimi olur: fərqlilikləri fərqləndir, toplumu hissələrə ayır, kiçiklə böyüyün yeri tərs olsun və bu əsasda özünə faydalı olan faktorları qabart. Daha da konkrertləşdirsək, hətta, ən kiçikləri elə böyüt ki, sənin marağına cavab versin!

Əlbəttə, bu üsul açıq ifadə edilməz və onu həyata keçirmək üçün müxtəlif terminoloji baza yaradılmışdır. Bu bazada "demokratiya", "liberalizm", "böyük dövlətin böyük maraqları təbiidir", "böyük strategiya", "insan haqları önəmlidir" və s. kimi anlayışlar vardır. Qərb dünyasına aid olmayan güclü dövlətlər isə bir qədər fərqli informasiya sahəsində fəaliyyət göstərirlər. Məsələn, onlar üçün "Rus dünyası" və ya "Çin marağı" və s. kimi terminlər əhəmiyyətlidir.

Bütün bunlar çox mürəkkəb olan təfəkkür situasiyasının informasiya müharibəsinə aid olan lokal bir qismidir. Əsas mənası belədir: təsir obyekti seçilən cəmiyyətdə fərqlilikləri yenidən fərqləndirməyi alovlandırmaqla toplumda mövcud birliyi laxlatmaq, ən kiçikləri başa çıxartmaq və bununla sosial tarazlığı pozmaq, iqtidarla vətəndaş arasında qarşılıqlı inamsızlıq, legitimsizlik və hörmətsizlik yaratmaq və s.

Belə bir yanaşma avtomatik olaraq hər bir fərdin sosial mühit üçün əhəmiyyətini dəfələrlə artırır, çünki vurğulanan pozucu məqsədlərə çatmaq üçün hər bir fərdin "beyni və qəlbi" uğrunda mübarizə aparmaq lazım gəlir. Ona görə də indi istər Qərb, istər başqa məkanın güclü dövlətləri olsun, qarşı tərəfdə sosial təşkilatlar, qeyri-hökumət təşkilatları, sosial klublar, vətəndaş birlikləri və digər lokal təşkilatlanma modellərindən istifadə edirlər.

Eyi zamanda, ara vuranlar bütün məsuliyyəti hakimyyətin üstünə ataraq, ikiqat zərər verməyə çalışırlar. Birincisi, real vəziyyəti təhrif edirlər. İkincisi, vətəndaşı və bütövlükdə, toplumu dövlətin taleyindəki məsuliyyətli rolundan uzaqlaşdırırlar. Birtərəfli olaraq, iqtidarı hədəf göstərməklə həm reallığı təhrif edirlər, həm də vətəndaşın ölkə üçün daşıdığı məsuliyyətə kölgə salırlar. Bununla cəmiyyətdə abseintist əhval-ruhuyyəsi yaratmağa cəhd göstərirlər. Yəni vətəndaş öz dövlətinə, cəmiyyətinə laqeyd olur, onun məsuliyyətini daşımalı olduğunu təsəvvür edə bilmir.

Ara vuranların yaxın perspektivdə aradan qalxacağını gözləmək sadəlövhlükdür, çünki yuxarıda göstərməyə çalışdığımız kimi, təməldə, ümumiyyətlə, təfəkkürün işləmə tərzi, başqalarına yanaşma fəlsəfəsinin prinsipləri durur. Onların aradan qalxması perspektivi isə görünmür. Yenə də liderlik, ağalıq, gücü başqasına tətbiq etmək və s. planlar ortadadır. Bu barədə dünyanın müxtəlif dövlətlərinin liderləri dəfələrlə müxtəlif kontekstlərdə açıq fikirlər söyləmişlər. Həmin fikirlər sırasında "indi böyük dövlətlər gücə arxalanırlar", "dünya 5-dən böyükdür", "güclü olan haqlıdır" və buna bənzər digər tezislər də vardır.

## Azərbaycan məsələsi

Bütün bunların işığında Azərbaycan məsələsinin regional və multiregional miqyaslarda böyük güclər üçün hansı anlama gəldiyini təsəvvür etmək çətin deyildir. Çünki Azərbaycan faktiki olaraq, dünya siyasətini belə silkələyən addım atdı. Azərbaycan Respublikası son dövrdə dünyaya göstərdi ki, ərazicə kiçik olsa da, siyasi-diplomatik potensialı və dövlət qura bilmək mədəniyyəti yüksəkdir. Bu keyfiyyətdə regionun lideri ola bilər. Hətta multiregional miqyasda ciddi geosiyasi güc səviyyəsinə yüksələ bilər. Bunun üçün Azərbaycan daxili birliyi təmin etmək iqtidarındadır. Onun başlıca üsulu multikultural dəyərlərə dayanan XXI əsrin tələblərinə uyğun toplum formaşlaşdırmaqla bağlıdır. Bununla Bakı güclü dinamik cəmiyyət nümunəsi yaradır.

Daxili birliyə söykənən multikultural siyasəti rəsmi Bakı regional və multiregional miqyasda siyasi-mədəni birliyə proyeksiya edə bilir. Bunun nümunələri kifayət qədərdir. Son iki sammit – Astanada ŞƏT və Şuşada TDT tədbiri həmin tezisin əyani sübutudur.

Deməli, Azərbaycan, faktiki olaraq, yeni bir güc kimi əsrlərdir dünyanı "fərqləndirənlərin" Cənubi Qafqazı yeni "fərqləndirmələrindən" qoruyan faktora çevrilmişdir. Bu statusun miqyasını, potensialını və gücünü hər birimiz anlamalıyıq! Dərk edib, Azərbaycana qarşı əl uzadanların əsl niyyətlərini adekvat təsəvvür etməliyik. Qəbul etməliyik ki, Azərbaycan məsələsi onun hər bir vətəndaşının məsələsidir!

Elə bir məsələdir ki, bizim mənəviyyatımızdan, ruhumuzdan, əxlaqımızdan, intellektual imkanlarımızdan və sosial fəaliyyətindən istifadə edib, Cənubi Qafqazı yenidən "fərqləndirmə" qapalı dairəsinə salmağa çalışırlar. Bunun üçün bizim aramıza nifaq salmaq niyyətindədirlər. Deməli. hər birimizi özümüzdən soruşmadan bu oyunun oyunçusu kimi görürlər. Ümid edirlər ki, azərbaycanlılar təxribata uyaraq özlərini məhv etməyə imkan yaradacaqlar. Yəni siyasi və geosiyasi anlamda Azərbaycan məsələsi real həyatda mənim, sənin, onun, hər bir azərbaycanlının ölüm-qalım məsələsidir. Ləyaqətli və qanun əsasında yaşayıb-yaşamamaq məsələsidir. Bu məqamda çox önəmli bir məsələni vurğulamaq lazımdır.

## Liderlik qüdrəti və inklüziv legitimlik

Məsələnin bu tərəfi indiki mərhələdə informasiya müharibəsində olduqca aktualdır. Çünki "fərqləndirənlər" yaxşı bilirlər ki, Azərbaycan Respublikasının dövlət kimi uğurlarının memarı Prezident İlham Əliyevdir. İlham Əliyev siyasi varislik institutunun Cənubi Qafqazda səmərəli ola biləcəyini hər kəsə sübut etmiş liderdir. Bu, tarixi və siyasi baxımdan çox mühüm hadisədir. Çünki İlham Əliyev nümunəsi təsir potensialına görə yalnız Azərbaycan Respublikasının dövlət sərhədləri ilə məhdudlaşmır. Əks tərəfi İlham Əliyevin lider kimi regional və multiregional miqyasda çox sayda dövlət, ölkə və toplumları bir araya gətirə biləcək potensiala malik olması rahatsız edir. Baxın, İlham Əliyev işğal altında olan əraziləri azad etdi və Azərbaycan cəmiyyətini birləşdirdi. Onun azərbaycanlı gəncləri vətənpərvərlik, multikulturalizm, millilikIə bəşəriliyi özündə birləşdirən fərdlər ruhunda yetişdirdiyini hər kəs görür.

İndi də görürlər ki, İlham Əliyev Yaxın Şərq, Cənubi Qafqaz, Mərkəzi Asiya və Uzaq Şərq geosiyasi məkanlarını siyasi anlamda bir araya gətirir. Çinlə strateji əməkdaşlıq qurmanın konkret müddalarını müzakirə edir, Rusiya ilə strateji müttəifliqiyi təkmilləşdirir, Türkiyə ilə əlaqələri yeni səviyyəyə yüksəldir, İranla münasibtələrin əsl dostluq və qardaşlıq müstəvisinə gətirilməsi üçün möhtəşəm addımlar atır, Gürcüstanla strateji tərəfdaşlığı daha da inkişaf etdirir.

Bundan başqa, İlham Əliyev İsraillə də münasibətləri normal vəziyyətdə saxlamaqla Fələstin məsələsində öz mövqeyini açıq ifadə edir, Avropa Birliyi üzvləri ilə əməkdaşlığı enerji və milli təhlükəsizliklərin vəhdəti kontekstində inkişaf etdirir. Uzaq ABŞ belə, Azərbaycanla əməkdaşlığın perspektivinə çox inanır. Afrikada müstəmləkə siyasətinin qurbanları nicat yolunu Azərbaycanla bir yerdə mübarizə aparmaqda görürlər. Fransa kimi güclü bir dövlət Azərbaycana bu prosesdə mane ola bilmir!

Bütün bunlar faktdır və eyni zamanda, Azərbaycana qarşı informasiya müharibəsini daha da alovlandıran faktorlardır. Çünki səmimi olmayan, öz marağı müstəvisində hər yerdə "fərqlilikləri fərqləndirməklə" məşğul olmağı təfəkkürünün əsas işlək mexanizminə çevirənlər bu reallıqları asan həzm etməzlər! Onlar çox müxtəlif üsullarla hər birimizin beyninə, qəlbinə və ürəyinə nüfuz edərək özümüzə qarşı şübhə oyatmağa çalışmaqdadırlar. Onlar azərbaycanlıları öz möhtəşəm liderləri haqqında yanlış fikirdə olmağa təhrik edən qeyri-səmimi rəqiblərdir. Bu üsulla İlham Əliyevin liderliyinin inklüzivliyinə zərər verməyə çalışırlar! İndi aparılan informasiya savaşının geosiyasi "yükü" bu dərəcədə ağırdır!

Təsəvvür edin: Azərbaycan lideri qısa tarixi müddətdə dövləti, ölkəni, cəmiyyəti, regionu, bütövlükdə, Türk dünyasını haradan haraya gətirdi. Və bu proses eyni templə davam etsə, regional və qlobal miqyasda geosiyasi mənzərə necə dəyişə bilər? Yəni, sadə dillə desək: Azərbaycan bu yolla özünü, regionu və dünyanı hara aparır? Bizdə bu sual çox nikbin və konstgruktiv-yaradıcı əhval yaradır. Başqa cür fərqlənmə məntiqi görmək istəyənlər üçün isə məhşər yuxusudur.

Bir də bu mövqedən Azərbaycanda aparılan informasiya savaşının "iç cəbhəsi"nə nəzər salın. Nələri görürsünüz?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# Frankofoniya ermənipərəstliyi və İrəvanın "dəvə xisləti"

## Qarabağ amili və Cənubi Qafqazda sülhə əngəl təmayüllər

**Ermənistanın maraqlarına xidmət baxımından özünü göstərən Frankofoniya təşkilatı yenə köhnə ampluasındadır. Qurumun parlament assambleyası "Ermənistan Respublikasının ərazi bütövlüyü və Dağlıq Qarabağ erməniləri haqqında" qətnamə qəbul edib. Bu barədə Ermənistan parlamentinin "Mənim addımım" partiyasından olan deputatı Arman Yeqoyan özünün "Facebook" səhifəsində yazıb. Qətnamədə nədən söz açıldığını diqqətə çatdıracağıq. Ancaq əvvəlcə bir məqamın üzərində dayanaq.**

A.Yeqoyanın təmsil olunduğu "Mənim addımım" partiyasının yaradıcısı Ermənistanın baş naziri Nikol Paşinyandır. Məsələ burasındadır ki, Nikol və onu hakimiyyətə gətirən qüvvələr 2018-ci ildə müxtəlif, belə demək mümkünsə, partnyor siyasi qurumlar formalaşdırmışdılar. Bunların içərisində hazırda baş nazirin özünün rəhbərlik etdiyi "Vətəndaş sazişi" də var idi, "Missiya" adlı təşkilat da, "Mənim addımım" partiyası da. Bu planı quranlar gələcək üçün marionet müxalifətin olmasını hesablamışdılar. Məqsədləri demokratik ab-hava görüntüsü yaratmaq, əslində isə parlamentdə üstünlük qazanmaq idi. Sözümüz ondadır ki, "Mənim addımım" elə hakim "Vətəndaş sazişi" kimi bir şeydir və bu partiya Frankofoniya təşkilatında anti-Azərbaycan motivli qətnamənin təşəbbüskarı qismində çıxış edir. Deməli, rəsmi İrəvanın Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanımasına dair ara-sıra verdiyi bəyanatlar mənasız söz yığınıdır, səmimiyyətdən uzaqdır.

Bəli, bir halda ki, A.Yeqoyanın təmsil olunduğu "Mənim addımım" Frankofoniya Təşkilatında "Ermənistan Respublikasının ərazi bütövlüyü və Dağlıq Qarabağ erməniləri haqqında" qətnamənin qəbuluna nail olur, deməli, Ermənistan hakimiyyətinin ölkəmizlə sülh müstəvisində dilə gətirdiyi fikirlər də əhəmiyyətini itirir, saxta mahiyyət daşıyır. Sözügedən qətnamədə həmin mahiyyəti təsdiqləyən məqamlar kifayət qədərdir. Elə isə mövzuya keçək.

Frankofoniya Təşkilatının məlum qətnaməsində bildirilir ki, sənəd "Azərbaycanın 2023-cü il sentyabrın 19-da Dağlıq Qarabağa hücumu, 100 mindən çox erməninin məcburi köçkünlüyü və Azərbaycanın Ermənistanın ərazi bütövlüyünü pozmaqda davamlılığı" nəzərə alınaraq qəbul edilib. "Qarabağa hücum" məntiqinə diqqət yetirək. Sanki Azərbaycan özünün konstitusiya quruluşunu bərpa etməməli, Qarabağdakı separatçı rejimi sıradan çıxarmamalı idi. Görəsən, başqa istəkləri qaldımı?

Əlqərəz, Frankofoniya parlament assambleyası beynəlxalq aləmi Ermənistanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə çağırır. Sanki, kimlərsə ölkənin işğalına çalışırlar, onun müdafiəsinə ehtiyac duyulur. Göründüyü kimi, təşkilat məzlum erməni obrazı yaratmaq kimi ənənəvi "yola" girişib. Bu obrazda ən böyük "rol" Qarabağ ermənilərinə verilir. Qətnamədə "Azərbaycanın işğalı" nəticəsində onların, guya, etnik təmizləməyə məruz qaldıqları, həmçinin erməni mədəni və dini irsininin məhvə düçar olduğu vurğulanıb. Yəni sənəd rəsmi İrəvanın zaman-zaman baş vurduğu xarici siyasət ritorikasının ruhundadır. O ruh ki, onun bütün ifadə formalarında anti-Azərbaycan təbliğatının motivləri var.

Bəs Frankofoniya təşkilatının "Ermənistanın müstəqilliyinə və suverenliyinə sarsılmaz dəstəyi" nədir? Bunun üçün də çox düşünməyə ehtiyac yoxdur. Belə ki, qurumun qətnaməsində 1991-ci ilin Alma-Atı Bəyannaməsi üzərində dayanılıb. Bildirilib ki, Azərbaycan və Ermənistan arasında münasibətlər həmin bəyannamənin ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması müddəasına uyğun tənzimlənməlidir. Yəni bu, dolayısı ilə o deməkdir ki, Ermənistan hökuməti 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməyəcək, Naxçıvana maneəsiz yol öhdəliyindən boyun qaçıracaq. Ancaq buna görə ölkə hansısa çətin duruma düşsə, ona dəstək göstərilməlidir.



Bəli, Frankofoniya təşkilatının parlament məclisi, loru dildə desək, vay-şivən salmaqla, qabaqdangəlmişliklə məşğuldur. Bu sərsəm ritorika da rəsmi İrəvanın xarici siyasət kursunda başlıca halqanı təşkil etməkdədir. Məsələ burasındadır ki, Azərbaycanın Naxçıvana yol məsələsində irəli sürdüyü "Azərbaycandan Azərbaycana yol" məntiqini, yəni orada gömrük və sərhəd nəzarətinin olmaması tələbini heçə sayan Ermənistan hakimiyyəti sözügedən yolun fəaliyyət göstərməsində də maraqlıdır. Ona görə maraqlıdır ki, həm iqtisadi, həm də siyasi dividend götürməyi planlaşdırır. İqtisadi dividend budur ki, Ermənistan rəhbərliyi ölkəni qlobal nəqliyyat xabının əsas aktoruna çevirməyi və bu yolla böyük qazanca sahiblənməyi planlaşdırır. Siyasi dividend isə odur ki, mühüm yolların kəsişməsində yerləşəcək Ermənistan həm də həmin yolların işləməsinə maraq göstərən ölkələr qarşısında da müəyyən üstünlüyə yiyələnəcək. Yəni, baş nazir Nikol Paşinyan heç də əbəs yerə "Dünyanın kəsişməsi" ideyasını irəli sürmür.

Azərbaycanın mövqeyinə gəldikdə, ölkəmiz Naxçıvana maneəsiz yol olmayacağı təqdirdə, həmin yolun Ermənistan deyil, İran ərazisindən keçməsi üzərində dayanır. Nəticədə Ermənistan otuz il ərzində olduğu kimi, yenə təcrid durumunda qalır. Ən əsası, bu təcrid Qərbin Cənubi Qafqaz planlarını alt-üst edir. Qərb yaxşı anlayır ki, Ermənistanda 2018-ci il inqilabı ilə əldə edilmiş üstünlüyün qorunub saxlanılması vacibdir. Deməli, quyuya su tökməklə onun sulu olmayacağı barədə yetkin təsəvvür var. Buna görə də Ermənistanın özünü dolandıra bilən statusuna ehtiyac duyulur. Həmin ehtiyacın qarşılanmasında başlıca məsələ Naxçıvana yolun ölkədən keçməsidir. Qərb, o cümlədən ABŞ Azərbaycan – Ermənistan sülh sazişini məhz bu səbəbdən prioritet sayır. Daha doğrusu, Naxçıvana İrandan deyil, Ermənistan ərazisi kimi qeyd olunan dəhlizdən yolun keçməsi Qərbin mühüm sülh komponenti kimi çıxış edir. Məsələnin belə qoyuluşu isə Ermənistanın ərazi bütövlüyü və suverenliyi amilini ön plana çıxarır. Frankofoniya təşkilatının parlament assambleyası Alma-Atı Bəyannaməsi məntiqini məhz bu səbəbdən qabardır və rəsmi İrəvanın maraqlarının müdafiəsinə qalxır.

***

Sonda belə nəticəyə gələ bilərik ki, Frankofoniya təşkilatının parlament assambleyasının qətnaməsi Ermənistan tərəfindən irəli sürülmüş sülh gündəminin açıq və qapalı tərəflərinin qorunmasını rəhbər tutur. Yəni həm erməni xislətinin Qarabağ avantürasının davamını, həm də Ermənistan hakimiyyətinin sülhün öhdəliklərdən yayınma əzminin müdafiəsini. Frankofoniya təşkilatı müstəvisində "Mənim addımım" partiyasının, həmçinin qurumdan olan deputat Arman Yeqoyanın iştirakı isə gözdən pərdə asmaqdır. Əvvəldə də bildirdiyimiz kimi, səmimiyyətdən uzaqlıqdır. Necə deyərlər, dəvə başını samanlığa salıb, elə zənn edir ki, onu görən yoxdur. Hazırda Ermənistan hakimiyyəti bu vəziyyətdədir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

## Buxarada Azərbaycan–Özbəkistan Əməkdaşlıq Komissiyasının iclası



**Buxarada Azərbaycan – Özbəkistanın Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının 13-cü iclası keçirilib. İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti iclasda ölkəmizi təmsil edib.**

Səfər çərçivəsində Mikayıl Cabbarovun Özbəkistanın investisiya, sənaye və ticarət naziri Ləziz Kudratovla görüşündə bildirilib ki, Azərbaycan və Özbəkistan prezidentləri İlham Əliyev və Şavkat Mirziyoyev ölkələr arasında iqtisadi tərəfdaşlığın möhkəmlənməsi məsələlərinə xüsusi əhəmiyyət verir ki, bu da hər iki ölkənin və regionun iqtisadi tərəfdən inkişafına şərait yaradır. Danışıqlar zamanı ölkələr arasında müxtəlif iqtisadi istiqamətlər üzrə yeni imkanlar nəzərdən keçirilib, birgə təşəbbüslərin mühüm rol oynadığı vurğulanıb. Tərəflər sənaye, kənd təsərrüfatı, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə ediblər.

Sonra Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının 13-cü iclası keçirilib. Həmsədrlər Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın investisiya, sənaye və ticarət naziri Ləziz Kudratov qeyd ediblər ki, komissiya birgə layihələrin həyata keçirilməsi və işgüzar əlaqələrin inkişafında səmərəli platformadır.

Bildirilib ki, ölkələr arasında ikitərəfli ticarət əməkdaşlığı iqtisadi münasibətlərin əsas istiqamətini təşkil edir. Ötən il mal dövriyyəsi 180 milyon dollara yaxın olub. Bu ilin 5 ayı ərzində isə bu rəqəm 70 milyon dollara yaxındır. Azərbaycanda sənaye, ticarət, nəqliyyat, tikinti, kənd təsərrüfatı və xidmət sahələrində 90 özbək şirkəti qeydiyyatdan keçib. Birgə əməkdaşlıq çərçivəsində Hacıqabul sənaye parkında minik avtomobilləri istehsal edilir. Bu il iyulun 1-dək 5 min 300-dən artıq "Chevrolet" markalı avtomobil istehsal olunub. Bu layihə çərçivəsində pikap, yük maşınları və avtobusların istehsalı da həyata keçirilir.

Qeyd olunub ki, Azərbaycan və Özbəkistan nəqliyyat-tranzit sahəsində də uğurla əməkdaşlıq edir. SOCAR və "Özbəkneftqaz" hər iki ölkədə neft yataqlarının istismarı ilə bağlı yeni llayihələrin həyata keçirilməsində birgə fəaliyyət göstərir.

Görüşdə Mərkəzi Asiya dövlətlərindən Avropaya elektrik enerjisinin Azərbaycan ərazisindən ixrac olunması imkanları da müzakirə olunub. Azərbaycan, Özbəkistan və Qazaxıstan enerji sistemlərinin birləşdirilməsi üzrə əməkdaşlıq haqqında 2024-cü ilin may ayında imzalanan memorandum bu sahədə səmərəli və qarşılıqlı əməkdaşlığın təməlini qoyub. Səhiyyə, turizm, təhsil, mədəniyyət və başqa sahələrdə uğurlu fəaliyyət davam edir.

Sonda imzalanan yekun sənəddə ticarət-iqtisadi, energetika, nəqliyyat-tranzit, kənd təsərrüfatı, innovasiya, və digər sahələrdə əlaqələrin daha da möhkəmləndirilməsi öz əksini tapıb.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**

Buxara

# "Moody's" ölkəmizin reytinqini "sabit"dən "müsbət"ə qaldırıb

**Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər dünyanın əksər dövlətləri, eləcə də bir sıra beynəlxalq təşkilatlar tərəfindən bəyənilir, təqdir olunur. Təsadüfi deyil ki, hazırda tanınmış reytinq agentlikləri də ölkəmizin gələcək iqtisadi inkişafı ilə bağlı nikbin, ümidverici fikirlər səsləndirir, əvvəlki proqnozlarını mütəmadi olaraq yeniləyirlər.**




Nüfuzlu beynəlxalq reytinq agentliyi olan "Moody's"un Azərbaycanla bağlı fikirləri də bu baxımdan maraq doğurur. Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi və makroiqtisadi siyasətin səmərəliliyi perspektivlərinin yaxşılaşdığı qənaətinə gələn agentlik Azərbaycan hökumətinin emitent və yüksək təminatsız xarici valyutada reytinqlərini "Ba1" səviyyəsində təsdiqləyib və proqnozu "sabit"dən "müsbət"ə dəyişib.

"Müsbət proqnoz iqtisadiyyatın şaxələndirilməsi və makroiqtisadi siyasətin effektivliyinin təkmilləşdirilməsi perspektivlərini əks etdirir. Bu da Azərbaycanın kredit profilinin daha yüksək reytinq səviyyəsinə uyğun olaraq xeyli güclənməsinə səbəb ola bilər. Avropa və Asiya arasında mühüm nəqliyyat qovşağı kimi Orta Dəhlizin artan əhəmiyyəti və Azərbaycan daxilində investisiya qoyuluşu iqtisadi perspektivə təkan verir. Doğrudur, bunun iqtisadiyyata təsiri yalnız zamanla hiss olunacaq. Bundan başqa, Avropanın Azərbaycan təbii qazına tələbatının artması, həmçinin bərpa olunan enerji sahəsində layihələrin genişlənməsi tükənən neft ehtiyatlarının ölkənin xarici hesablarına təsirini yumşaldacaq", – deyə agentliyin hesabatında bildirilir.

Qurumun analitikləri hesab edirlər ki, neft qiymətlərinin dəyişməsi və fiskal intizam daxil olmaqla, son sarsıntılar fonunda makroiqtisadi sabitliyin saxlanılmasına dair "xidmət dəftərçəsi" bu istiqamətdə yürüdülən siyasətin effektivliyinin artmasını göstərir. Bununla yanaşı, hesabatda qeyd olunur ki, idarəetmənin təkmilləşdirilməsi üzrə davamlı səylər səmərəli olarsa, zamanla institusional effektivlik və bu istiqamətdə siyasətə dair etimad daha da güclənəcək.

Reytinqin təsdiqi kreditlə bağlı üstünlükləri əks etdirir. Bu isə ölkəmizin aşağı borc yükü, çox yüksək borc almaq imkanına malik olması və xarici aktivlərdə saxlanılan əhəmiyyətli fiskal ehtiyatları ilə çox güclü dövlət balansına əsaslanır. Bütün bunlar öz növbəsində hökumətin likvidlik və xarici həssaslıqla bağlı riskləri azaldır. Azərbaycanın yerli və xarici valyutada reytinq tavanlarının müvafiq olaraq "Baa2" və "Ba1" səviyyəsində dəyişməz olaraq qaldığını önə çəkən hesabat müəllifləri qeyd edirlər ki, yerli valyuta tavanı ilə suveren reytinq arasındakı iki səviyyədə fərq hökumətin iqtisadiyyatda böyük iştirakını və hələ də zəif institusional idarəetməni Dövlət Neft Fondunun ölkənin xarici və makroiqtisadi sabitliyini dəstəkləyən nəhəng aktivlərinə qarşı tarazlaşdırır.

Hazırda Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə xidmət edən Cənub Qaz Dəhlizinin uğurlu fəaliyyəti də "Moody's"un diqqətindən yayınmayıb. Belə ki, qurum son hesabatında "Cənub Qaz Dəhlizi" QSC-nin (SGC) yüksək təminatsız xarici valyuta reytinqlərinin "Ba1" səviyyəsində təsdiq edib və proqnozu sabitdən müsbətə dəyişib. Azərbaycanın Avropa İttifaqının onun təbii qaz resurslarına olan yüksək tələbatından faydalandığını önə çəkən hesabatda qeyd olunur ki, bu amil təşkilatın Rusiya "mavi yanacağ"ından asılılığını azaltmaq üçün mənbələri və tədarük marşrutlarını şaxələndirmək səylərini əks etdirir. "Son 1-2 il ərzində Azərbaycan Avropa Komissiyası, eləcə də ayrı-ayrı Avropa ölkələri ilə qaz tədarükü ilə bağlı bir sıra sazişlər imzalayıb. Nəticədə, 2022-ci ildən bəri qaz hasilatı və ixracı əhəmiyyətli dərəcədə artıb və SGC boru kəmərinin kəşfiyyatı və genişləndirilməsi layihələri sayəsində əlavə artım imkanları yaranıb. Xüsusən də neft ehtiyatlarının tükənməsi səbəbindən bu enerji resursunun hasilatının azaldığını nəzərə alsaq, karbohidrogen sektorunda qaz tədarükünün artırılmasının ənənəvi neftdən asılılığın şaxələndirilməsini təmin edəcəyini söyləyə bilərik", – deyə sənəddə vurğulanır.

Nüfuzlu reytinq agentliyinin hesabatından da göründüyü kimi, Azərbaycan Avropanın "mavi yanacaq"la təminatında yaxından iştirak edir ki, bu da ölkəmizin strateji müttəfiq, enerji əməkdaşı kimi əhəmiyyətini getdikcə artırır. Müqayisə üçün qeyd edək ki, 2021-ci ildə Azərbaycandan Avropaya 8 milyard kubmetr qaz ixrac edilmişdisə, 2023-cü ildə bu göstərici 11,8 milyard kubmetr təşkil edib. Avropa İttifaqı ilə imzalanmış memoranduma əsasən isə, Azərbaycan 2027-ci ilə qədər "köhnə qitə"yə təbii qaz tədarükünü 20 milyard kubmetrə çatdırmalıdır.

"Moody's" beynəlxalq reytinq agentliyinin Azərbaycanın suveren reytinqinin müsbət proqnozla "Ba1" səviyyəsində təsdiqlənməsi ilə bağlı hesabatında Orta Dəhlizin Avropa və Asiya arasında mühüm nəqliyyat qovşağı kimi əhəmiyyəti də yer alıb. "Orta Dəhliz kimi tanınan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu layihəsi ilə bağlı fəallığın artması nəqliyyat və logistika sektorunda dayanıqlı göstəricilərin əsasını təşkil edir. Onun Çin və Avropa İttifaqı arasında ticarət əlaqələri üçün alternativ marşrut kimi artan əhəmiyyətini nəzərə alsaq, bu sektorda gələcək artımın iqtisadiyyatın şaxələndirilməsinə dəstək verəcəyini söyləyə bilərik", – deyə agentliyin analitikləri qeyd edirlər. Hesabatda o da bildirilir ki, böyük və şaxələndirilmiş nəqliyyat-logistika sektorunun iqtisadiyyatda daha çox müsbət xarici təsirləri olacaq və bu da Azərbaycanın dayanıqlığını və kredit profilini gücləndirə bilər.

Qeyd edək ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstandan keçərək daha sonra Türkiyə və Avropa ölkələrinə uzanır. Ötən il bu marşrutla 2,7 milyon ton yük daşınıb ki, bu da əvvəlki illə müqayisədə 86 faiz çoxdur. 2024-cü ildə isə Orta Dəhlizlə yükdaşımaların 4 milyon tonu keçəcəyi gözlənilir.

"Moody's" beynəlxalq reytinq agentliyinin hesabatında ölkəmizin suveren fondu olan Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) uğurlu fəaliyyəti də yer alıb. Hesabatda qeyd olunur ki, ARDNF-də saxlanılan suveren sərvətlər əhəmiyyətli dərəcədədir və hökumətin birbaşa borcunu təxminən beş dəfə örtür. Qurum analitiklərinin fikrincə, Azərbaycanın "Ba1" reytinqinin təsdiqlənməsi aşağı borc yükü və xalis aktiv mövqeyi, güclü hökumət balansı ilə dəstəklənir. Hesabatda vurğulanır ki, belə fiskal xəzinə ehtiyatlarının olmasının hökumətin likvidlik risklərini məhdudlaşdırır. "Pandemiya zamanı belə fiskal buferlərdən səmərəli istifadə kontrsiklik xərcləri həyata keçirməyə imkan verib və hökumətin fiskal və borc fəaliyyətinin pisləşməsini məhdudlaşdırıb. Bundan başqa, bu aktivlər xarici valyutada ifadə edilir və əsasən sabit gəlirli qiymətli kağızlara yatırılır. Nəticədə bununla Mərkəzi Bankda saxlanılan valyuta ehtiyatlarına əlavə olaraq əlavə xarici buferlər təmin edilir",– deyə sənəddə qeyd olunur.

# Elektron Rəqabət İnformasiya Sisteminə keçid gerçəkləşir

**Prezident İlham Əliyev "Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında" 9 iyul 2024-cü il tarixli fərman imzalayıb. Sənədin adıçəkilən sistem vasitəsilə icrası zamanı bir sıra layihələrin həyata keçiriləcəyi nəzərdə tutulub. Belə ki, fərmanda rəqabət və istehlakçıların hüquqlarının müdafiəsi sahələrində istehlakçıların və bazar subyektlərinin müraciətlərinin (vəsatətlərinin) qəbulu, emalı, onlara əlavə edilməli olan sənədlərin və ya məlumatların real vaxt rejimində digər dövlət orqanlarından (qurumlarından) sorğu əsasında əldə olunması qərara alınıb. Yeri gəlmişkən, həmin müraciətlərə (vəsatətlərə) dair qərarların və məlumatların elektron qaydada təqdim edilməsi, habelə qeyd olunan sahələrdə məlumatların istifadəçilər üçün əlçatanlığının gerçəkləşdirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.**



Fərmana əsasən, Elektron Rəqabət İnformasiya Sisteminin sahibi funksiyalarını İqtisadiyyat Nazirliyi, operatoru fəaliyyətini İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti həyata keçirir. Sözügedən sistemin yaradılması və saxlanılması ilə bağlı xərclər isə adıçəkilən nazirlik yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin büdcədənkənar gəlirləri hesabına həyata keçirilir.

Sənəddə Nazirlər Kabinetinə Elektron Rəqabət İnformasiya Sistemi haqqında əsasnamənin layihəsinin hazırlayıb altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi, İqtisadiyyat Nazirliyinə isə həmin müddət ərzində sistemin formalaşdırılmasını həyata keçirmək tapşırılıb.

Bundan başqa, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, Elektron Rəqabət İnformasiya Sisteminin "Hökumət buludu"nda yerləşdirilməsini təmin edəcək.

Fərmanda bildirilir ki, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti sözügedən sistemi mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etməli və onun təhlükəsizlik meyarları üzrə monitorinqini həyata keçirməli, bu sahədə informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə sahibi və operatoru ilə birlikdə zəruri tədbirlər görməlidir.

Beləliklə, Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması Rəqabət Məcəlləsinin tətbiqi istiqamətində atılan mühüm addımdır. Mütəxəssislərin fikrincə, bu məcəlləyə əsasən, rəqabət orqanı bir sıra hallarda təbii inhisar subyektinin müraciətdə göstərilən hərəkətlərinə razılıq verilməsindən imtina edə bilər. Qüvvədə olan qanundan fərqli olaraq, məcəllədə rəqabət orqanı tərəfindən təbii inhisar subyektinin müraciətində göstərilən hərəkətləri etməsinə razılıq verilməsindən imtinanın konkret əsasları müəyyənləşdirilib. Bu mənada, əgər həmin hərəkətlər mövcud qiymətlərin artmasına, müştərilərlə müqavilələrin pozulmasına səbəb olarsa, müştərilərin qanuni mənafelərinə mənfi təsir göstərərsə, digər təsərrüfat subyektlərinin iqtisadi fəaliyyətinin məhdudlaşmasına gətirib çıxara, yaxud azad sahibkarlıq mühitinə mənfi təsir göstərərsə, qiymətləri tənzimlənən məhsulun satılması üçün istifadə olunan texnoloji sistemin pozulmasına və ya qiymətləri tənzimlənən məhsulun keyfiyyətinin aşağı düşməsini şərtləndirərsə, subyektin imkan və resurslarının müştərilərin məhsul üzrə ehtiyacının tam həcmdə ödənilməsinə imkan verməzsə, bu halda rəqabət orqanı təbii inhisar subyektinin həmin hərəkətləri etməsinə razılıq verilməsindən imtina edə bilər.

Qeyd edək ki, 2030-cu ilədək müəyyənləşdirilən Milli Prioritetlərdə Azərbaycanda dayanıqlı, artan rəqabətqabiliyyətli iqtisadiyyat və rəqabətli insan kapitalı, müasir innovasiyalar məsələləri xüsusi yer tutur. Həmin məsələlərin uğurla gerçəkləşdirilməsi digər şərtlərlə yanaşı, ölkədə inhisarçılıq meyillərinin aradan qaldırılmasını və azad rəqabətin təşviqini də tələb edir. Belə şəraitdə isə bazarın böyük hissəsini ələ keçirən, təklifin həcminə və qiymətlərə nəzarət edən hər hansı subyektin bu sahədəki fəaliyyətini məhdudlaşdırmaq qarşıda mühüm vəzifə kimi durur. Bu halı aradan qaldırmaqla iqtisadiyyatın səmərəliliyinə, məhsulun keyfiyyətinə müsbət təsir göstərmək mümkündür. Başqa sözlə, Rəqabət Məcəlləsinin tətbiqi ilə bazarda qiymətlər tələb-təklifə uyğun surətdə tənzimlənir, azad və sağlam rəqabət mühiti formalaşır, rəqabət qanunvericiliyinə əməl edilməsi ciddi şəkil alır.

### Ekspert rəyi

**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru, professor**



Cari ilin iyul ayının 1-dən ölkədə Rəqabət Məcəlləsi qüvvəyə minib. Bu ərəfədə ölkə Prezidentinin müvafiq fərmanı ilə Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması heç də təsadüfi sayıla bilməz. Sənədə əsasən, adıçəkilən sistem rəqabət və istehlakçıların hüquqlarının müdafiəsi sahələrində istehlakçıların və bazar subyektlərinin müraciətlərinin qəbulunu, emalını, onlara əlavə sənədlərin və ya məlumatların real vaxt rejimində digər dövlət orqanlarından sorğu əsasında əldə olunmasını, həmin müraciətlərə dair qərarların və məlumatların elektron qaydada təqdim edilməsini, habelə vurğulanan sahələrdə məlumatların istifadəçilər üçün əlçatanlığını təmin edəcək.

Elektron Rəqabət İnformasiya Sisteminin sahibi funksiyalarını isə İqtisadiyyat Nazirliyi, operatorluğu isə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti həyata keçirəcək, onun yaradılması və saxlanılması ilə bağlı xərclər Dövlət Xidmətinin büdcədənkənar gəlirləri hesabına olacaq.

Beləliklə, ölkədə sağlam bazar münasibətlərinin formalaşmasında atılan yeni addım bu sahədə mövcud olan problemlərin çözülməsini təmin edəcək.

Beləliklə, yeni qüvvəyə minən Rəqabət Məcəlləsi rəqabətpozucu davranışlarla mübarizədə adekvat alətlərin tətbiqinə və daha səmərəli qərarların qəbul edilməsinə şərait yaradacaq. Eyni zamanda, müasir çağırışlara cavab verən rəqabət qanunvericiliyi bazar paylarının təkmil alətlər vasitəsilə müəyyənləşdirilməsi və bazar münasibətlərinin tənzimlənməsi, özəl sektorun inkişafı, rəqabət intizamının gücləndirilməsi, iqtisadi artım və gəlirlərin optimal bölgüsünə töhfə verəcək. Rəqabət Məcəlləsi ölkədə əlverişli biznes mühitinin inkişafı, təsərrüfat subyektlərinin sayının və iqtisadiyyata cəlb olunan investisiyaların artması üçün geniş imkanlar yaradacaq.

Ümumiyyətlə, Rəqabət Məcəlləsi rəqabət sahəsində tənzimlənməni, təbii inhisarlarla bağlı dövlət tənzimlənməsinin təşkilati və hüquqi əsaslarını, bazar subyektlərinin hüquqlarını və vəzifələrini, habelə rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyənləşdirir, sahibkarlıq da daxil olmaqla, iqtisadi fəaliyyətin ədalətli üsullarla aparılmasına hüquqi zəmin yaradır.

Rəqabət Məcəlləsinin qüvvəyə minməsi mühüm hadisədir. Məcəllənin işlək reallaşdırma mexanizminin hazırlanıb tətbiq edilməsi, sənəddə nəzərdə tutulan tələblərə dolğun şəkildə əməl edilməsi də xüsusi diqqət çəkir. Prezident İlham Əliyevin Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında fərman imzalaması mühüm önəm daşıyır.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

COP29
BAKU AZERBAIJAN
NOVEMBER 2024

# "Yaşıl dünya" naminə həmrəylik



# COP29: "Yaşıl həmrəylik" təhlükəsiz qlobal gələcəyə "yaşıl işıq" yandırır

*(əvvəli 1-ci səhifədə)*

***– COP29-un əhəmiyyətini bu sahəyə yaxından bələd olan kimyaçı alim kimi necə qiymətləndirirsiniz?***

– Qeyd etdiyiniz kimi, paytaxtımız bu ilin noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi edəcək. Bu, bir faktdır ki, COP29 ölkəmizdə indiyə qədər keçirilən tədbirlərlə müqayisəyə gəlmir. Hətta bu vaxta kimi, Bakıda reallaşan iri formatlı tədbirlərdən olan Avropa Oyunlarını xatırlasaq, o zaman respublikamıza 5 min idmançı və onları müşayiət edən, təqribən, 3 min qonaq gəlmişdi. Ancaq COP29-da ölkəmizə 70-80 min xarici nümayəndənin gələcəyi gözlənilir.

Buna görə də bu mötəbər tədbirin qalib ölkənin adına layiq şəkildə keçirilməsi sıravi vətəndaşdan tutmuş səlahiyyətli şəxslərə, dövlət qurumlarından özəl təşkilatlara qədər milliyətindən, dilindən, dinindən aslı olmayaraq hamı səfərbər olmalı, hər kəs üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirməlidir. Alimlərimiz də bu tədbirin əhəmiyyətini yüksək qiymətləndirir, konfransın məsuliyyətini dərk edirlər.

***– COP29-un əsas məqsədləri sırasında yer alan qlobal ekoloji problemlərin həlli, ekoloji təhlükəsizliyin bərqərar olması istiqamətində işlərin görülməsində Aşqarlar Kimyası İnstitutu alimləri indiyə qədər hansı işləri görüb və bundan sonra görəcəklər?***






– Respublikamız zəngin neft və qaz ölkəsi olduğundan neft və qazçıxarma, neft və qaz emalı, neft kimyası və bütövlükdə, kimya sənayesi həmişə ekoloji məsələlərə xüsusi diqqət tələb edib. Ancaq sovet dövründə keçmiş SSRİ rəhbərliyi bu sahədə tamamilə yararsız texnologiyalar əsasında neft istehsalı həyata keçirib, nə olursa-olsun, Azərbaycanın sahib olduğu "qara qızıl"ı tamamilə çıxarıb, tükəndirmək siyasəti yürüdüb. Bu məqsədli siyasət yeraltı sərvətimizi tükəndirməklə yanaşı, ölkəmizin ekoloji mühitini korlayıb, neftlə çirklənmiş ərazilərdə ekoloji böhran yaradıb, insanların sağlamlığını ciddi təhlükəyə atıb.

Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra dahi şəxsiyyətin qətiyyəti və iradəsi sayəsində Azərbaycanın neft-qaz sektorunun və kimya sənayesinin yenidən qurulması və müasirləşdirilməsi ilə ekoloji problemlərin də həlli istiqamətlərində əsaslı dönüş mərhələsi başlandı.

Sualınıza gəldikdə isə qeyd edim ki, Aşqarlar Kimyası İnstitutu alimlərinin ekoloji problemlərin həllinə yönələn fundamental və tətbiqi işlərini bir neçə qrupa ayırmaq olar. Siz yaxşı bilirsiniz ki, neft emalı məhsullarının əsas hissəsini motor və soba yanacaqları təşkil edir. Bu yanacaqların mühərriklərdə, su-elektrik stansiyalarında, eləcə də sənaye müəssisələrində yandırılması zamanı atmosferə karbon qazı, dəm qazı, yüngül karbohidrogenlər, kükürd və azot oksidləri kimi zəhərli qazlar atılır.

Hər hansı mühərrik daha çox dizel yanacağı ilə işlədikdə atmosferə qeyd edilən qazlarla yanaşı, his hissəcikləri və nəzərə çarpacaq miqdarda aromatik birləşmələrdən alınan kanserogen birləşmələr (benzopiren və s.) də buraxılır. Hazırda dünyanın əksər ölkələrində dizel mühərriklərinə bir sıra çirkləndiricilər üçün emissiya meyarı təyin edilir. Böyük Britaniyanın Lester Universitetinin nəzdindəki Ağ Ciyər Sağlamlığı İnstitutunun və digər ölkələrin tibb mərkəzlərinin araşdırmalarına görə, nəqliyyat mühərriklərindən çıxan his hissəcikləri insanların, xüsusilə balaca uşaqların ağ ciyərində yığılır, ciddi fəsadlara yol açır.

Bu qlobal problemə qarşı institutumuzda atmosferin dizel mühərrikinin tullantı qazlarının əsas toksik komponenti olan tüstü ilə çirklənməsini azaltmaq üçün dizel yanacaqlarına tüstüyə qarşı effektiv aşqar yaradılıb. Belə ki, dizel mühərriklərinin işləməsi zamanı çıxan qazlarda tüstünün və kanserogen maddələrin miqdarını kəskin azaldan, təkcə ölkəmizdə deyil, keçmiş SSRİ-də dizel yanacağı üçün ilk tüstü əleyhinə aşqar məhz bizdə yaradılaraq tətbiq olunub.

Bu aşqar əlçatan və ucuz xammaldan istifadə etməklə istehsal edilib. Onun istehsal prosesi texnoloji və texniki dizayn baxımından olduqca sadə idi və sənaye miqyasında asanlıqla həyata keçirilirdi. Yanacağa 0,2 – 0,5 faiz kütlə qatılıqda əlavə edilən tüstüyə qarşı bu aşqar dizel mühərrikinin növündən asılı olaraq, onun buraxdığı tüstünün 60-90 faiz azalmasını təmin edib.

Dizel mühərrikinin tərkibində tüstüyə qarşı aşqar olan yanacaqla işləməsi, beynəlxalq sanitariya standartları ilə müqayisədə tullantının atmosferə buraxılmasını nəzərə çarpacaq dərəcədə aşağı sala bilir.

Rusiya Federasiyası Tibb Elmləri Akademiyasının F. Fersman Təcrübə və Klinik Onkologiya İnstitutunda aparılan araşdırmalar göstərib ki, Aşqarlar Kimyası İnstitutunda hazırlanmış tüstüyə qarşı aşqarın dizel yanacağına əlavə edilməsi işlənmiş qazların tərkibində olan kanserogen birləşmələrin miqdarını isə 45-50 faizədək azaltmağa imkan verir.

Həmin aşqar dizel mühərriklərinin və yanacaq avadanlığının etibarlılığı və uzun müddət istismarına mənfi təsir göstərmir, aşağı temperaturda dizel yanacağının filtrasiya qabiliyyətini pozmur, az zəhərli maddədir və dizel yanacağına əlavə olunduqda onun toksikliyini artırmır.

İnstitutumuzda hazırlanmış tüstüyə qarşı aşqarın müxtəlif texnikanın dizel mühərriklərində təkcə ölkəmizin deyil, həmçinin keçmiş bir çox sovet respublikalarının aparıcı elm mərkəzləri və zavodlarında uğurla sınaqdan keçirilib və müsbət nəticələr alınıb.

Aşqarlar Kimyası İnstitutu tərəfindən hazırlanmış tüstüyə qarşı aşqar dizel yanacağı kompozisiyasının Rusiya Federasiyası Kursk Maqnit Anomaliyası karxanalarında yükünü özüboşaldan böyük yük maşınlarında, "Moskva reka" Moskva Naviqasiyası Co katerlərində və digər təşkilatlarda uğurla tətbiq olunub.

Sözügedən tüstüyə qarşı aşqarın tətbiqi mədənlərdə, karxanalarda və işlənmiş qazlarla çox zəhərlənmə səbəbindən işlərin dayandırılması tələb olunan digər müəssisələrdə güclü dizel mühərrikli texnikanın işləməsində xüsusilə səmərəli olub və Rusiya Federasiyası və Azərbaycan tərəfindən patentləri alınıb.

***– Son illər ətraf mühitin sağlamlaşdırılmasına xidmət edən elmi işləriniz hansılardır?***

– İnstitut alimlərinin ölkəmizin ekoloji təhlükəsizliyinə böyük töhfə verdiyi elmi layihələrdən biri işlənmiş motor yağlarının regenerasiya texnologiyasının yaradılması və regenerasiya məhsulu əsasında müxtəlif təyinatlı sürtkü kompozisiyalarının yaradılması ilə bağlı olub.

Ölkəmizdə avtomobil və digər texnika parkının ildən-ilə sürətlə genişləndirilməsi və bununla da istifadə olunan sürtkü yağlarının kənara atılması ətraf mühiti çirkləndirməklə ekoloji gərginlik yaradır. Ona görə də uzun müddət müasir neft kimyası elminin qarşısında duran əsas məsələlərdən biri həmin zərərin minimuma endirilməsi olub. Bu nöqteyi-nəzərdən ekoloji gərginliyi mümkün qədər azaltmaq üçün həm sürtkü yağlarının keyfiyyətini xüsusi əlavələrlə – aşqarlarla yaxşılaşdıraraq, onların işləmə müddətini artırmaq, həm də işlənmiş yağları bərpa edib yenidən istifadə etmək lazım gəlirdi. Bu məqsədlə hələ bir neçə il əvvəl institutda ekoloji gərginlik yaradan işlənmiş sürtkü yağlarının təkrar istifadəsi istiqamətində elmi-tədqiqatlar aparılıb, işlənmiş yağların təkrar istifadəsini təmin etmək üçün yeni regenerasiya üsulu – texnoloji proses işlənib hazırlanıb. Alınan məhsullar əsasında aşqar kompozisiyası ilə əmtəə yağının analoqu yaradılıb və müəyyənləşdirilib ki, müxtəlif təyinatlı motor yağının yaradılmasında regenerasiya olunan yağlar baza yağı kimi istifadə edilə bilər.

Məlumat üçün onu da qeyd edim ki, institutda 2014–2015-ci illərdə həyata keçirilən "Yerli bentonitlərdən istifadə etməklə işlənmiş yağların regenerasiya texnologiyasının yaradılması və regenerasiya olunmuş yağ əsasında sürtkü yağlarının işlənilməsi" adlı elmi layihə çərçivəsində "Pilot qurğu" inşa edilib, 2019-cu ilə kimi "Azərenerji" tərəfindən verilən işlənmiş sürtkü yağları regenrasiya edilib. Burada yeni elmi yanaşma olduğundan tədqiqat işinə "məxfi" qriflə patent alınıb.

Onu da bildirim ki, neftlə çirklənmə nəticəsində respublikanın ərazisində məhsuldar torpaqların deqradasiyası prosesi baş verir, onların bioloji fəallığı azalır, erroziya prosesi güclənir. Neft çirklənmələrinin təmizlənməsində iqtisadi və ekoloji cəhətdən səmərəli olan bioloji üsullar sırasında mikroorqanizm və bitkilərin birləşmiş metabolizm potensialından istifadəyə əsaslanan "fitoremediasiya" xüsusi yer tutur. Bu amili nəzərə alan institut tərəfindən neftlə çirklənmiş torpaqların bərpa və münbitləşdirilməsi üçün Azərbaycanın ekoloji-iqlim şəraitini nəzərə alan, bitkilər və destruktor mikroorqanizmlərin birgə təsirini təmin edən rasional fitoremediasiya texnologiyası hazırlanıb.

İnstitut alimlərinin ekoloji problemlərin həllinə yönələn ən son uğurlu tətbiqyönlü elmi işlərindən biri də Balaxanı ərazisində min tonlarla yığılmış və ekoloji problem yaradan "turş qudron"un emal prosesinin yaradılması və emal məhsulunun istifadəsi ilə əlaqəlidir.

Təbii ki, bundan sonra da bu məsələlərə daha çox diqqət yönələcək və çoxşaxəli fəaliyyət genişlənəcək. Çünki ölkəmizdə keçiriləcək COP29 elmi-tədqiqat institutları, eləcə də kimyaçı alimlərimiz qarşısında yeni vəzifələr qoyacaq. Bu vəzifələri yerinə yetirmək respublikamıza iqtisadi inkişaf ilə yanaşı, başqa ölkələrə nümunə göstəriləcək ekoloji təhlükəsizlik gətirəcək.

***Müsahibəni qələmə aldı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

## BMT Baş katibinin COP29 gözləntisi



***Birləşmiş Millətlər Təşkilatının Baş katibi bu il Bakıda keçiriləcək COP29-la bağlı gözləntisini açıqlayıb. Astanada "ŞƏT plyus" formatında keçirilən görüşdə Antoniu Quterreş bildirib ki, bu il COP29 keçiriləcək, qlobal iqlim dəyişikliyinin qarşısını almaq üçün indidən addımlar atılmalıdır.***

İqlim dəyişikliyi ilə mübarizə üçün daha böyük vəsaitin ayrılmasının vacibliyini vurğulayan qurum rəhbəri deyib ki, COP29 maliyyə məsələləri ilə bağlı aydın strategiyaya ehtiyac duyur. "İkinci məsələ süni intellektlə bağlıdır. Süni intellektlə bağlı risklərin azaldılması üçün texnologiya şirkətləri, vətəndaş cəmiyyəti institutları ilə birgə çalışmalıyıq. Bizə vahid bazar, vahid internet kimi yanaşmalar lazımdır. Qlobal Rəqəmsal Razılaşma bizim üçün çox vacibdir", – deyə o, əlavə edib.

**Ölkəmizin işğaldan azad edilmiş ərazilərində indiyədək 300-dən çox fərdi yaşayış evində, ictimai və sosial binalarda ümumi gücü 2 min kilovatdan çox olan günəş panelləri quraşdırılıb və proses məskunlaşma planlarına uyğun davam etdiriləcək. Bunu Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin layihələrin idarə edilməsi şöbəsinin müdiri Cəbrayıl Əliyev bildirib.**

# "Qayıdış" ünvanları "yaşıl enerji" ilə nurlanır



Agentlik nümayəndəsinin sözlərinə görə, artıq Laçın rayonunun Zabux kəndində 223, Sus kəndində 59 fərdi yaşayış evinin hər birində 3,3 kilovat, Laçın şəhərində 24 fərdi yaşayış evinin hər birində 3-5 kilovat, Zəngilan rayonunda yerləşən Konqres Mərkəzində 166 kilovat, Füzuli, Laçın, Zabux və Susdayerləşən məktəb binalarında 20-40 kilovat, Zəngilan rayonunun Ağalı kəndində inzibati binaların üzərində ümumi gücü 325 kilovat olan damüstü günəş panelləri quraşdırılıb və şəbəkəyə qoşulma təmin edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bilavasitə təşəbbüsü və qərarı ilə işğaldan azad edilmiş ərazilər "yaşıl enerji" zonası elan edilib və hazırda bu ərazilərdə "Yaşıl Enerji Zonası" Konsepsiyası tətbiq edilməkdədir. C.Əliyev deyib ki, işğaldan azad edilmiş ərazilərdə mövcud olan yüksək bərpaolunan enerji potensialının istifadəsi və ərazilərin ekoloji cəhətdən təmiz "yaşıl enerji" ilə təmin edilməsi Konsepsiyanın əsas məqsədlərindən biridir. Konsepsiyanın tələblərinə əsasən, məskunlaşma zamanı fərdi evlərdə və ictimai binalarda yaşıl texnologiyaların, o cümlədən, günəş panellərinin quraşdırılması təmin edilməlidir.

"Yaşıl enerji zonası"nın yaradılması çərçivəsində işğaldan azad edilmiş ərazilərdə bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, enerji səmərəliliyi tədbirləri, elektrik nəqliyyat vasitələrindən istifadə, tikililərin damlarında bərpa olunan enerji qurğularının (xüsusən günəş panellərinin) qurulması, həmçinin, küçələrin və yolların işıqlandırılmasında günəş enerjisi əsaslı LED lampalardan istifadə, ağıllı enerji idarəetmə texnologiyalarının tətbiqi kimi "yaşıl" texnologiyalardan istifadə şəhər, rayon, qəsəbə və kəndlərin layihələndirilməsi zamanı nəzərə alınan əsas amillərdən biridir", – deyə o, əlavə edib.

***XQ***

# "Masdar"ın Azərbaycanda yeni maraqları

**"Masdar" şirkəti Birləşmiş Ərəb Əmirliklərinin nümayəndə heyəti ilə birlikdə COP29-da iştirak etmək niyyətindədir və onun uğurla həyata keçirilməsində Azərbaycana dəstək olacağına ümid edir. Bu fikri şirkətin MDB regionu üzrə inkişaf və investisiya söbəsinin rəhbəri Məryəm Əl Mazrui deyib.**



O, "Masdar"ın ölkəmizdə həyata keçirdiyi hər bir təşəbbüsün 2030-cu ilə qədər bərpaolunan enerji potensialının üç dəfə artırılması üzrə milli məqsədə töhfəsini verdiyini vurğulayıb. Şirkət rəsmisi COP29 çərçivəsində Azərbaycan hökuməti və "Masdar" arasında yeni sazişlərin bağlanmasını da istisna etməyib. Azərbaycanı təmsil etdiyi şirkət üçün əsas strateji bazar kimi dəyərləndirən Məryəm Əl Mazrui deyib: "Biz 2018–2019-cu illərdə Energetika Nazirliyi ilə danışıqlara başlamışıq və hazırda qüvvədə olan bir layihəmiz var. 230 meqavat gücündə Qaradağ Günəş Elektrik Stansiyası layihəsi işə salındı və böyük uğur qazandı. "Masdar", Azərbaycanın Energetika Nazirliyi və "Azərenerji" arasında strateji əməkdaşlıq vasitəsilə biz bu uğuru genişləndirmək və inkişaf etdirməyə çalışırıq".

Qeyd edək ki, Azərbaycanın bərpaolunan enerji potensialına xüsusi maraq göstərən "Masdar" şirkəti 2022-ci il iyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində Şuşa şəhərində keçirilən forum zamanı Azərbaycanın Energetika Nazirliyi ilə "yaşıl enerji"yə dair iki saziş imzalayıb. Həmin sənədlər isə toplam olaraq 10 giqavat gücündə enerji güclərinin yaradılmasını nəzərdə tuturdu. İki il sonra, 2024-cü il iyunun 4-də Xəzər neft-qaz sərgisi zamanı həmin sazişlərin reallaşdırılması istiqamətində konkret addımlar atıldı. Belə ki, həmin gün Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə ümumi gücü 1 giqavat olan üç böyük layihənin təməli qoyuldu. Həmin layihələrə Biləsuvarda 445 meqavatlıq, Neftçalada, Bankə qəsəbəsində 315 meqavatlıq günəş və Bakı–Şamaxı yolunun üstündə 240 meqavatlıq Abşeron–Qaradağ külək elektrik stansiyaları daxildir.

***XQ***

“İki sahil” qəzeti – 33

# Dünənlə sabah arasında bir qərinəlik salnamə

**İlkin sayları müstəqil dövlətçiliyimizi öz daxilində əritməyə çalışmış sovet imperiyasının süqutunun həlledici mərhələyə daxil olduğu günlərdə işıq üzü görmüş “İki sahil” qəzeti yaxınlaşan suverenlik epoxasının mətbu qaranquşlarından biri olub. Öz adında ikiyə bölünmüş Bütöv Azərbaycanın tarixi taleyini ifadə edən ictimai-siyasi nəşr bugünədək 1 qərinəlik şərəfli yol keçib.**



“İki sahil”, haqlı olaraq, müstəqil ölkəmizin azad, demokratik media qurumlarından biri kimi, dünənin həqiqətləri ilə gələcəyin hədəflərinin “zaman sahilləri” arasında 33 ilin “bugünlər”inin doğru-düzgün və əhatəli salnaməsini yaratmaqda peşəkarlıq və yurd sevgisi sərgiləyən mötəbər nəşr sayılır. Qəzetin baş redaktoru, tanınmış media xadimi, professor Vüqar Rəhimzadə ilə söhbətdə əsrin üçdə biri qədər yol keçmiş qəzetin yüz ilə bərabər fəaliyyətinə nəzər saldıq.

**– Vüqar müəllim, ötən 33 ilin gur axarında zaman “İki sahil”i hansı sahildən hansı limana gətirib?**

– “İki sahil” zaman baxımından xalqımızın ərazi bütövlüyümüz uğrunda barışmaz mübarizəsinin müstəqillik uğrunda ümummilli savaşa çevrildiyi günlərin sahillərindən yola çıxaraq, çətin və ümidli illərdən keçərək torpaqlarımızın işğalına son qoyulması, suverenliyimizin tam bərpa edilməsinədək milli tariximizin ən şərəfli günlərinə yetişib. Bu yol ağrı-acılarla, məhrumiyyətlərlə yanaşı, həm də dirçəliş, yüksəliş və tərəqqinin sevincləri və məmnunluğu ilə müşayiət olunub. Keçdiyimiz yola hesabat nəzəri ilə baxanda ötən illərin hər bir gününün izlərini, çağırış və uğurlarını səhifələrimizdə görürük. Bu mənzərə “ikisahilçilər”də öyünc duyğu-düşüncələri yaratmaqla yanaşı, hər birimizə yeni həvəs və salnaməçilik məsuliyyəti də gətirir.

“İki sahil” dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycanın keçdiyi yolun bələdçilərindən biridir. Qəzetimiz ilk addımlarını atanda Azərbaycan hələ dövlət müstəqilliyini bərpa etməmişdi. İstər müstəqilliyimizin bərpasına qədərki, istərsə də onun qorunub möhkəmləndirilməsi uğrunda qətiyyətli mübarizə kollektivimiz üçün söz savaşı illəri olub. İlk vaxtlar müstəqil mətbuatın fəaliyyətindən danışmaq qeyri-mümkün idi. Bu, böyük cəsarət, möhkəm dözüm tələb edirdi.

Quduzlaşmış sovet senzurasının tüğyan etdiyi bir zamanda “İki sahil” qəzetini böyük çətinliklə yaratdıq, yaşatdıq. O çətinliklər çoxdan arxada qalıb. Amma zəhmətli günlərimizin yükü durmadan artıb. Müstəqil Azərbaycanın yaşıdı olan qəzetimiz ötən dövrdə böyük inkişaf yolu keçib, zəngin mətbu irs yaradıb və ölkəmizin çap mediasında özünəməxsus yer tutub. Kollektiv ilk gündən qarşıya qoyduğa amala, tutduğu yola sadiqlik nümayiş etdirib.

Bu illər ərzində qəzetin formatı, dövriliyi, dizaynı, peşəkarlıq səviyyəsi yüksəlsə də respublikamızın ictimai-siyasi, iqtisadi, mədəni həyatının bütün sahələrini dolğun şəkildə işıqlandırmaq, oxuculara ölkə və dünyada baş verən hadisələrlə bağlı dolğun məlumat çatdırmaq, müstəqil dövlətimizin siyasətinə informasiya dəstəyi göstərmək məramı dəyişməz qalıb. Çoxsaylı mətbu nəşrlər arasında özünəməxsusluğu qorumaq, geniş oxucu auditoriyası qazanmaq kollektivimiz üçün fəaliyyət üzağlığı, yaradıcılıq xoşbəxtliyidir.

“İki sahil” gəncliyinin yetkinlik dövrünü yaşayır. Hər dövrün öz tələbi, çağırışları var. Oxucuların yazılı və elektron mətbuatdan gözləntiləri zamanın mesajlarını necə əks etdirməklə cavablandırılır. Bunun üçün yola çıxdığımız ilk gündən oxucuların informasiya tələbatını daha dolğun, obyektiv və qərəzsiz ödəməyə çalışmışıq. Zaman-zaman qazandığımız inam, güvən sonrakı fəaliyyətimizə, yeniliklərə həssas olmağımıza stimul yaradıb.

**– Qarabağ Zəfərimiz həyatımızı, bütövlükdə, növbəti hədəflərimizi üstün bir səviyyədə qərarlaşdırıb. Qalib ölkənin mediası bu tarixi uğuru əks etdirməklə yanaşı, həm də yeni gerçəkliyin önündə çağdaş kəmiyyət və keyfiyyət meyarları sərgiləməyə borcludur.**



– Bəli, ən yaxşı müəllim və münsif zamandır. Vətən müharibəsindəki Qələbəmiz mediamız üçün də yeni tələblər və vəzifələr gündəmə gətirib. Fəaliyyətimiz bu Zəfərə layiq olmalı, onun açdığı yola işıq salmalıdır. 4 il öncəyə qədər qəzetimizin əlamətdar tarixlərini qeyd edərkən başlıca arzumuz bu olurdu ki, torpaqlarımızın işğaldan azad edilməsinin, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa edilməsinin müjdəçisi olaq. Artıq bu müqəddəs istəyimiz dövlətimizin qətiyyəti, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun gücü, qüdrəti, xalqımızın “dəmir yumruq” kimi birliyi sayəsində gerçəyə çevrilib. 4 ilə yaxındır ki, tarixi Zəfərimizin qürur və təntənəsini yaşayırıq.

Müstəqillik tariximizin zəfər səhifələrinin sayı isə daim artır. Bu gün ölkəmiz bütövləşmiş Azərbaycan olaraq işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərini həyata keçirir. Qarabağımız, Şərqi Zəngəzurumuz dirçəlir. Ötən ilin 20 sentyabrında suverenliyimizin tam bərpa edilməsi ilə Azərbaycanın həyatında yeni dövr başladı. Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə Azərbaycan Bayrağını ucaldan Prezident İlham Əliyev son 20 ildə verdiyi bütün vədlərin yerinə yetirildiyini böyük qürurla bəyan etdi.

Biz bu möhtəşəm marafonu həssaslıq və ardıcıllıqla izləyirik. Azərbaycanın hər bir uğuru, dövlətimizin qalibiyyətli siyasəti “İki sahil” qəzetinin səhifələrində də geniş təhlil edilərək dolğun şəkildə ictimaiyyətə çatdırılır. Tarixi Zəfərimizdən, şanlı Qələbədən sonrakı dövrün reallıqlarından böyük qürur hissi ilə bəhs edirik.

Hər birimizin həyatında, fəaliyyətində də Zəfərimizin rolunu görməmək mümkün deyil. Bu gün tamamilə fərqli bir ab-havanı, ovqatı yaşayırıq. Son bir illik fəaliyyətimizə, hər gün oxucularının görüşünə gələrək onların informasiyaya olan tələbatını ödəməyə çalışan “İki sahil”in səhifələrində yer alan məqalələrə, analitik yazılara diqqət yetirsək, Azərbaycanımızın yeni dövrün hədəflərinə doğru inamla addımladığını görərik. Zəfərimizin açdığı yolun imkanları bütün sahələrin inkişafında özünü göstərir.

**– Redaksiyanız nəşr etdiyi qəzetin 33 yaşını hansı yenilik və töhfələrlə qarşılayır?**

– Yeniliklər bütün həyatımızı geniş əhatə etdiyi bir dövrdə ondan kənarda qalmaq, bu prosesə töhfə verməmək mümkün deyil. Təbii ki, ictimai fikrin formalaşmasında, həqiqətlərimizin təbliğində əsas missiyanı yerinə yetirən




mətbuat bu yeniliklərlə özünün də yeniləşməsi ilə ayaqlaşa bilər. Qalib Azərbaycanın demokratik jurnalistikasının, söz adamlarının da qarşısında yeni hədəflər dayanır. “Media haqqında” Qanunun qəbulu, burada əksini tapan və yeniliyə çağırış olan hər bir müddəanın uğurlu icrası yolunda digər mətbu orqanlar kimi, “İki sahil” də Zəfər reallıqlarına uyğun şəkildə yeniləşir.

Qəzetimizi yeni formatda təqdim edirik. Yeni görkəm təkcə çağdaş təqdimatın libası deyil, həm də məzmun göstəricisidir. Bu yüksək meyarı cavablandırmaq hər bir əməkdaşımızın, ümumilkdə, kollektivin məsuliyyətini ikiqat yüksəldir, yaradıcılıq səylərimizi gücləndirir.

**– Dediyiniz kimi, mediamızın müstəqil dövlətimizin siyasi xəttini dəstəkləməsi milli jurnalistikamızın vətəndaşlıq missiyası kimi gerçəkləşir. “İkisahilçilər” bu prosesdə də öncüllük göstərirlər.**

– “İki sahil”in səhifələrində müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin yeniliyi, təkmilləşməni özündə əhatə edən siyasəti nəticəsində qazanılan uğurlar davamlı və geniş əksini tapır. Ümummilli lider Heydər Əliyevin siyasi avanqard olaraq formalaşdırdığı Yeni Azərbaycan Partiyasının irəli sürdüyü təşəbbüslər, qəbul etdiyi qərarlar, iqtisadi inkişafımızı təmin edən neft strategiyamızın nailiyyətləri də aparıcı mövzularımızdır. Dövlətə, dövlətçiliyə xidmət “İki sahil”in fəaliyyətinin əsas prinsipidir. Qəzetimizin manşetinə çıxarılan xəbərlər Azərbaycanın uğurlarının zirvəsində dayanan tarixi Zəfərimizin yaratdığı reallıqlar əsasında görülən işlərdən, dövlətimizin atdığı Qələbə ruhlu addımlardan keçirdiyimiz xoşbəxtlik hissinin təqdimatlarıdır.

“İki sahil” daim yenilikləri öz fəaliyyətində tətbiq etməyə, uğur səhifələrini daha da zənginləşdirməyə səy göstərir. Qəzetin “ikisahil.az” internet saytı fəaliyyət göstərir. Daim zamanın tələblərinə uyğun olaraq yenilənir. “İki sahil” İnternet Televiziyası da fəaliyyət göstərir.

Qələminə, yazdığı hər bir informasiyanın dəqiqliyinə məsuliyyətlə yanaşan, analitik yazıların informasiya bolluğunu qərəzsiz, obyektiv şəkildə təmin edən əməkdaşlarımızın birgə səyləri nəticəsində ərsəyə gələn “İki sahil” oxucu auditoriyasının genişliyindən məmnundur. Bizə bu sevgini qazandıran tutduğumuz mövqeyə, əqidəyə sadiq olmağımızdır.

33 illik yolu bir neçə suala cavab çərçivəsində əhatə etmək qeyri-mümkündür. Əsas olan budur ki, atılan hər bir addımın başlanğıcında çətinliklər olsa da bu, bizi yolumuzdan döndərmədi, əksinə, daha cəsarətli, qətiyyətli olmağa səslədi. Hədəflərə doğru addım-addım irəliləyirik. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin “İki sahil” qəzetinin fəaliyyətinə verdiyi dəyəri hədəflərimizin əsası, məsuliyyətimizi daha da artırmağa çağırış kimi qəbul etmişik.

“İki sahil” 1991-ci ildə kiçik bir kollektivlə yola çıxdı. 33 ildə ailənin tərkibi daha da genişləndi. Qürurvericidir ki, “İki sahil”in yetirmələrinin səsi bu gün ayrı-ayrı nüfuzlu mətbu orqanlardan, müxtəlif strukturların mətbuat xidmətlərindən gəlir. “İki sahil” gənclər üçün bir məktəbdir. Qəzetimizdə gənclərin enerjisi ilə yaşlı nəslin təcrübəsi arasında vəhdət yaradılır. Bu güc uğurlarımızda öz sözünü deyir.

**– Ölkənin media ailəsində ortaq hədəflərlə yanaşı, addımladığımız “İki sahil”in kollektivini əlamətdar tarix – 33 illik səmərəli və fədakar fəaliyyətin tamam olması münasibətilə 105 yaşlı “Xalq qəzeti” redaksiyası adından səmimi təbrik edir, həmkarlarımıza yeni uğurlar arzulayırıq.**

**Söhbəti hazırladı:**
**Tahir AYDINOĞLU**
**XQ**

# İqtisad Universiteti Avropa reytinqində ölkə birincisidir

**Dünyanın nüfuzlu “QS Quacquarelli Symonds” agentliyi “QS Avropa 2025” reytinq nəticələrini elan edib. Azərbaycan Dövlət İqtisad Universiteti ötən illə müqayisədə 68 pillə irəliləyərək, reytinqdə 281-ci yerə yüksəlib və ölkə birincisi olub. Qərbi Asiya universitetləri arasında isə UNEC 12-ci yerə yüksəlib.**

Universitet reytinqdə “akademik nüfuz” indikatoruna görə ölkədə birincilik əldə edib, Avropanın isə ən yaxşı 162-ci universiteti olub. Eyni zamanda, “işəgötürənlərin nüfuzu” indikatoru üzrə ölkədə lider olan UNEC Avropanın 150 ən yaxşı universiteti sırasına yüksəlib.

Ali məktəbin reytinqdə ölkədə lider







olduğu digər indikator isə “dayanıqlılıq” üzrədir. “Məşğulluq nəticələri” üzrə də UNEC yüksək nəticə əldə edərək, Avropanın ən yaxşı 200 universiteti sırasına yüksəlib.

Qeyd edək ki, QS Avropa Universitetləri reytinqində 42 ölkənin 684 ali təhsil müəssisəsi təmsil olunub.

## Sosial xəbərlər

# Yeni 70 KOB subyekti yaradılacaq

**Dövlət Məşğulluq Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, “İnkişaf Korporasiyası” QSC-nin birgə təşkilatçılığı, “PASHA Holding” MMC-nin maliyyə dəstəyi ilə “Qarabağ KOB-ları 2024” proqramına başlanılıb. Layihənin məqsədi şəhid ailələri, müharibə iştirakçıları və onların ailə üzvlərinin sosial rifahının yaxşılaşdırılmasına və məşğulluğunun təmin olunmasına dəstək göstərməkdir.**




Proqram çərçivəsində Bakı, Gəncə, Bərdə, Goranboy, Laçın rayonunun Zabux və Zəngilan rayonunun Ağalı kəndlərində, ümumilikdə, 70 şəxs “Maliyyənin idarə olunması”, “Biznes planın hazırlanması”, “Marketinq”, “Sosial media marketinqi”, “İnsan resurslarının idarə olunması” və “Satış” mövzularında biznes, seçilmiş istiqamətlər üzrə peşə təlimlərinə cəlb olunacaqlar. Dövlət Məşğulluq Agentliyi iştirakçılara seçdikləri istiqamət üzrə avadanlıq verəcək.

Proqram çərçivəsində KOB-ların hazırladığı məhsulların və göstərdikləri xidmətlərin satışını həyata keçirən platforma da yaradılıb. Yeni KOB subyektləri də həmin platformaya əlavə ediləcək.

# Füzuli sakinləri də kiçik biznes qururlar

**Böyük Qayıdış proqramına uyğun olaraq Füzuli şəhərinə köçürülən sakinlərin də məşğulluğuna dəstək işləri davam edir. Dövlət Məşğulluq Agentliyi rayonda daha bir qrup şəxsə özünüməşğulluq proqramı çərçivəsində avadanlıq təqdim edib.**



Bu texniki vasitələr çatdırılma xidməti, avtoçilingər və poliqrafiya xidmətləri zərflərini əhatə edib. Proqram iştirakçılarına işlərini qurmaq üçün zəruri avadanlıq verilib. Bununla da doğma yurdlarına qayıdanlar üçün yaradılan təsərrüfatların sayı 110-a çatıb.

# 23 mindən çox əlillik təsdiqlənib




**Bu ilin 6 ayında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi 23 min 400 şəxsə əlillik təyin edib. Onlardan 11 min 500 nəfəri ilkin, 11 min 900-ü təkrar müayinədən keçib.**

Əlillik təyinatından sonra e-sistem üzərindən həmin şəxslərə əlilliyə görə proaktiv qaydada sosial ödənişlər (pensiya, müavinət, təqaüd) təyin olunub.

# Qubada ictimai dinləmə

**Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan “Məşğulluğa dəstək layihəsi” mövzusunda növbəti ictimai dinləmə Qubada keçirilib. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən XQ-yə verilən xəbərdə deyilir.**



Bildirilir ki, dinləmə layihə barədə məlumatı artırmaq, nəzərdə tutulmuş hədəf kateqoriyaları cəlb etmək məqsədi daşıyıb. İşaxtaran və işsizlərin iştirakı ilə keçirilən toplantıda layihənin hədəf və məqsədləri, əhatə dairəsi, icra zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər ətraflı şərh edilib. Öz biznesini qurmaq istəyənlərin bacarıqlarının inkişaf etdirilməsində proqramın rolu və əhəmiyyəti də vurğulanıb, müraciət və iştirak qaydaları diqqətə çatdırılıb.

İştirakçıları maraqlandıran suallar cavablandırılıb, işsiz və işaxtaran şəxslərə tövsiyələr verilib.

**Z.BƏŞİRQIZI**
**XQ**

# Ermənilərin musiqimizə növbəti təcavüzü

## *Söhbət “Qarabağ” mahnısı ilə bağlı oğurluqdan gedir*

**Daha bir erməni yalanı: bu dəfə Azərbaycan bəstəkarı Bəhram Nəsibovun məşhur “Qarabağ” (“Anadır arzulara hər zaman Qarabağ”) mahnısını erməni ifaçı Gor Yepremyan mənimsəyərək “Sirun jan” adı altında ifa edib və “YouTube” platformasında yayıb. Oğurluq mahnıya 2 ayda 1,1 milyon dinləmə olub.**



Faktı araşdıran Əqli Mülkiyyət Agentliyinin verdiyi məlumatda qeyd olunur ki, ilk növbədə, Azərbaycanın Xalq artistləri, bəstəkarlar Faiq Sücəddinov və Eldar Mansurov növbəti erməni oğurluğuna dərhal reaksiya veriblər. Agentliyin ekspertlərinin təhlilinə əsasən müəyyən edilib ki, Bəhram Nəsibovun “Qarabağ” əsəri muğamın çahargah ladında yazılıb və erməni ifaçının səsləndirdiyi “Sirun jan” adlı mahnı Bəhram Nəsibovun “Qarabağ” əsəri ilə tam üst-üstə düşür.




Ermənilər qədim türk yurdu Qarabağı öz adlarına çıxmaq istədikləri kimi, özündənbəy ifaçı da “Qarabağ” mahnısını özününküləşdirməyə çalışır. Əgər Qarabağ sənin idisə, o torpağa həqiqi sevgin, mənəvi bağlılığın olmalı idi və ürəkdən gələn bir bəstə ortaya qoymalı idin. Daha, ekspertlərin də təsdiq etdiyi kimi, Bəhram Nəsibovun “Qarabağ”ının adını dəyişdirib “Sirun jan” qoymaqla müəllif hüququnu pozmazdın. Ən azı, atası Azərbaycan əsilli Məhəmməd, anası isə erməni əsilli Toto olan məşhur Anadolu rok ifaçısı Cem Qaraca kimi babat bir “Qarabağ” yazmağa qabiliyyətin çatardı.

Əslində, bu, nankor qonşuların köhnə şakəridir. Xatırladaq ki, ötən il “XQ”-də analoji mövzuda verdiyimiz yazıda “Koçəri” Azərbaycan rəqsi barədə bəstəkarımız, Xalq artisti Eldar Mansurovun fikirlərini misal gətirmişdik. O haqlı olaraq demişdi ki, oğru və yalançı toplum olan ermənilərin musiqiçiləri keçmişdə də, yaxın XIX əsrdə, XX əsrin əvvəllərində də bizdən çox şey çırpışdırdıqları üçün dişlərində şirə qalıb. Dolmadan, küftə-bozbaşdan, başqa xörəklərimizdən tutmuş, “Sarı gəlin”, “Köçəri” kimi xalq mahnılarımıza, rəqslərimizə, bəstəkarlıq əsərlərimizə qədər hər şeyə sahib çıxmaq istəyir, ya da başqa ad altında sırımağa çalışırlar. Həyasızlıq o həddədir ki, hətta sırf Azərbaycan yallısının bir növü olan “Köçəri” UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısına daxil edildikdən sonra da bu havaya əsassız iddialı olan ermənilər saxtakarlıqlarından əl çəkməyiblər.

Qayıdaq “Qarabağ”a. Əqli Mülkiyyət Agentliyi bildirib ki, bu əsər Bəhram Nəsibovun mətn və musiqi müəllifi olduğu və ilk dəfə Arif Babayevin 1972-ci ildə Qarabağda konsertdə ifa etdiyi mahnıdır. Məhz həmin il iyunun 2-də “Qarabağ” mahnısı ovaxtkı Müəllif Hüquqları Agentliyində qeydiyyata alınıb və Azərbaycan musiqisi kimi tanınıb. Bununla yanaşı, Bəhram Nəsibovun vərəsələri bəstəkarın bir çox mahnılarını, o cümlədən “Qarabağ”ı 2004-cü il iyulun 21-də Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçirib və onlara əsərin qeydiyyatı haqqında 662 nömrəli şəhadətnamə verilib.

“Qarabağ” mahnısı 2009-cu ildə TRT-nin təşəbbüsü ilə “Türk dünyasında savaşların musiqidəki izləri” adlı alboma Əhməd Cavadın sözlərinə Üzeyir Hacıbəylinin musiqi yazdığı “Çırpınırdı Qara dəniz”lə bərabər daxil edilib. Albomda mahnını Ali Haydar Gül oxuyub. Yəni bütün arxiv sənədləri “Qarabağ” mahnısının, şəksiz, Azərbaycan müəlliflinə məxsus olduğunu göstərir. Aygün Bəylər, Aygün Kazımova, Könül Xasıyeva, Brilliant Dadaşova, Mənsum İbrahimov və digər məşhur ifaçılar televiziya və radiolarda, xarici ölkələrdə qastrol səfərlərində olarkən bu mahnını dəfələrlə ifa ediblər.

Gor Yepremyan isə “Qarabağ”ı mənimsəyərək, sözlərini dəyişib və erməni dilində oxuyub. “YouTube” kanalında yerləşdirilmiş “Sirun jan” haqqında verilən məlumat da başdan-başa müəllif hüquqlarının pozulmasına xidmət edir. Guya bu, erməni xalq kompozisiyasıdır.

Bu hal milli qanunvericiliyin müddəaları ilə yanaşı, Azərbaycan və Ermənistanın üzvü olduğu Ümumdünya Əqli Mülkiyyət Təşkilatını (ÜƏMT) təsis edən Konvensiyanın 3-cü maddəsinin tələbinin də pozulmasıdır. Belə ki, ÜƏMT-nin məqsədi “dövlətlərlə və istənilən digər təşkilatla əməkdaşlıq yolu ilə bütün dünyada əqli mülkiyyətin qorunmasına yardım etməkdən ibarətdir”. Həmçinin Azərbaycan və Ermənistanın iştirakçısı olduqları “Ədəbi və bədii əsərlərin qorunması haqqında” Bern Konvensiyasının, ÜƏMT-nin Müəlliflik Hüququna dair Müqaviləsinin və İfalar və Fonoqramlara dair Müqaviləsinin müddəalarının pozulmasıdır.

Məsələ ilə bağlı mərhum bəstəkarın oğlu “Bəhram Nəsibov yaradıcılığının təbliği” İctimai Birliyinin sədri Adil Nəsibovla əlaqə saxladıq. Onun dedikləri:

– Əqli Mülkiyyət Agentliyi daim Azərbaycan xalqına məxsus olan müəllif əsərlərini, folklor nümunələrini və digər qeyri-maddi mədəni irs nümunələrini ermənilərin zaman-zaman oğurlaması, mənimsəməsi və hay nümunələri kimi təqdim etməsi hallarına qarşı mübarizə aparır, hər bir faktı araşdıraraq, tarixi əsaslara söykənən və həmin əsərlərin Azərbaycan xalqına məxsusluğunu danılmaz faktlarla sübut edən arayışlar hazırlayıb, mətbuatda yayır. “Qarabağ” mahnısının oğurlanmasına da çevik reaksiya verildiyinə görə minnətdaram. Onu da deyim ki, bu mahnını atam hələ 60-cı illərdə, tələbə vaxtı yazıb.

Arif Babayevə qədər “Qarabağ” toylarda oxunub və populyarlaşıb. Bu musiqi əsərinə ermənilərin təsir cəhdi də ilk dəfə elə o vaxt olub. Deməli, atamın qaldığı yataqxananın erməni komendantı həyasızcasına mahnıda erməni “qəhrəmanlar”ının adlarının çəkilməsini istəyib. Amma atam bundan imtina etdiyi üçün yataqxanadan qovulub.

Fəxr edirəm ki, ölməz mahnılardan sayılan “Qarabağ” Vətən müharibəsi zamanı səngərlərdə oxunurdu. Əsgərlərimiz bir-birini bu mahnı ilə ruhlandırır, yaralarının ağrısı azalsın deyə, onu oxuyub-dinləyirdilər. Hətta Şuşa alınanda orada azan vermək üçün salamat məscid olmadığına görə ilk olaraq bu mahnını avtomat atəşləri ilə ritm tutaraq səsləndiriblər. Azad olunmuş ərazilərimizdə hazırda bərpa-quruculuq işləri görən tikinti ustaları da “Qarabağ”ı zümzümə etməkdən zövq alırlar. Bərpa edilən “Xarıbülbül” musiqi festivallarında isə bu mahnı dəfələrlə oxunub, hətta türkdilli xalqların milli geyimlərində olan musiqiçilər xorla ifa ediblər. Bəlkə də fürsətcil erməni Gor Yepremyan mahnını o zaman dinləyib və mənimsəmək qərarına gəlib. Üstəlik, onun klipindəki rəqs səhnəsində Bəhram Nəsibovun “Sənsiz yaşaya bilmirəm” mahnısının musiqisindən də cüzi dəyişikliklə istifadə olunub. Bəlkə də bütün bunlar revanşistlərin qısqanclığının təzahürüdür.

Mən bu gün Əqli Mülkiyyət Agentliyinə erməninin oğurluq ifasının “YouTube”dən silinməsi ilə bağlı ərizə ilə müraciət etdim. İnanıram ki, o eybəcər klip tezliklə “YouTube”dən çıxarılacaq.

Biz də ümidvarıq ki, mədəniyyət və incəsənətimizdən erməni oğurluqlarına qarşı daha barışmaz mübarizə aparılacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

Yaddaşlarda yaşayanlar

**...Muğam üstündə köklənmiş marağım məni bu dəfə “Simayi Şəms” dünyasına aparmışdı. O muğamı eşitmək istəyirdim. Onu da xatırladım ki, bu ritmik muğamı çox sənətkarımız oxusa da, kişi xanəndələrdən Arif Babayevin, xanım sənətkarlarımızdan isə Rəsmiyyə Sadıqovanın ifasını daha çox sevmişəm.**

Qərəz, internetdən “Simayi Şəms” muğamını seçmək istədim. Orada məni olduqca məmnun edən bir faktla rastlaşdım: “Gələndə” mahnısı. Oxuyur Rəsmiyyə Sadıqova. Xalq artisti, professor Vamiq Məmmədəliyevin videotekasından”. Eşq olsun ustad tarzənimizə ki, belə bir xəzinəni dinləyicilərin və tamaşaçıların ixtiyarına verib.

# “Simayi Şəms”lə sevdiyim sənətkar

Amma mən “Simayi Şəms”i arzulayırdım və tapdım. Həm də necə? Rəhmətlik Rəsmiyyə xanımın Masallıda – doğma el-obasında oxuduğu “Simayi Şəms”. Aman Allah, bu nə qismət imiş?

...Nə isə. 1994-cü il idi. Onda hələ dövlət radiosunda işləyirdim. Bəstəkar Şəfiqə Axundova mənim “Anama məktub” şeirimə musiqi yazmışdı. Nəyə görəsə onun iş otağına, televiziyanın Uşaq Proqramları redaksiyasına getmişdim. Otaqda başqa bir xanım da var idi. Şəfiqə xanım məndən soruşdu ki, İttifaq, Rəsmiyyə xanımı tanıyırsanmı? Opera solistimizdir.

Dedim, mən onun “Simayi Şəms”ini opera solistliyindən daha çox sevirəm. Şəfiqə Axundova elə bildi ki, Rəsmiyyə xanım mənim həmin sözlərimdən inciyər. Ona görə də dərhal etiraz etdi:

– Yox, yox, Rəsmiyyə xanım operalarda da böyük uğur qazanmış sənətkarımızdır.

Mən səhv elədiyimi başa düşdüm və susdum. Şəfiqə xanım əlavə elədi ki, Rəsmiyyə Sadıqova Masallıdan qayıdıb. Onu öz verilişinə dəvət edə bilərsən.

Soruşdum ki, Masallıda “Simayi Şəms” oxudunuzmu”? Dedi ki, əlbəttə.

Ertəsi gün studiyamıza gəldi. Xeyli söhbət etdik və söhbətimizi lentə yazaraq, veriliş hazırladım. Opera və Balet teatrındakı fəaliyyətindən xeyli danışdı. Çox təəssüf ki, sədr müavini Mövlud Süleymanlı xanəndə və ya müğənnilərin studiyada canlı ifasına və fonotekadan kənarda olan lent yazılarının efirə verilməsini qadağan eləmişdi. Ona görə də öz verilişimdə radionun fonotekasındakı “Simayi Şəms”i verməli oldum.



Rəsmiyyə xanım studiyadan çıxıb gedəndə bir də geri qayıtdı:

– Oğlum, bir xahişim var.

– Buyurun.

– Son zamanlar televiziya və radioda mənim familiyam bir neçə dəfə Sadıxova kimi səsləndirilib. Siz dəqiq deyin – Sadıqova.

Söz verdim və efirdə dedim ki, 40 il opera və balet teatrının solisti olmuş, 100 dəfə Əsli, Leyli, Şahsənəm, Telli kimi baş rollarda oynamış, eyni zamanda, “Simayi Şəms” ritmik muğamının ifasına özünəməxsus möhür vurmuş Rəsmiyyə Sadıqova Masallı şəhərindən qayıtmışdır. Onunla söhbətimizi təqdim edirik...

***İttifaq MİRZƏBƏYLİ***

# Braqada gənclər konfransı

**Portuqaliyanın Avropanın mədəniyyət paytaxtı adına iddialı olan Braqa şəhərində UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinin “Gəncləri masaya dəvət edirik” mövzusunda illik konfransı keçirilib.**



Ölkəmizin Mədəniyyət Nazirliyinin nümayəndə heyəti də konfransda iştirak edib. Başlıca məqsəd Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın Tədbirlər planına uyğun olaraq, mədəniyyət və yaradıcı sənayelər (MYS) üzrə ixrac imkanlarının genişlənməsinə yönələn təşviq mexanizmlərinin yaradılması olub.

Mədəniyyət Nazirliyindən bildirilib ki, 5 gün davam edən bu konfrans üzv şəhərlərə öz təcrübələrini bölüşmək, şəbəkə daxilində yeni əlaqələr yaratmaq və şəbəkə katibliyi və digər maraqlı tərəflərlə informasiya mübadiləsi aparmaq imkanı yaratmaq baxımından əhəmiyyətli platformadır.

Konfransda tematik sessiyalar, altşəbəkə görüşləri, şəhər merlərinin forumu, müxtəlif mədəni tədbirlər təşkil olunub. Həmçinin iştirakçılara bir sıra ölkələrin mədəniyyət müəssisələri və digər dövlət qurumlarının fəaliyyəti ilə tanış olmaq imkanı yaradılıb, şəbəkə çərçivəsində atılacaq növbəti addımlarla bağlı fikirlər səsləndirilib.

Nazirliyin nümayəndələrinin MYS sahəsində beynəlxalq səviyyəli ekspertlər və şəbəkəyə üzv olan bir sıra şəhərlərin sənaye nümayəndələri ilə görüşləri keçirilib. MYS üzrə məhsul və xidmətlərin ixracının təşviqi istiqamətində birgə layihələrin həyata keçirilməsi imkanları müzakirə olunub.

Eyni zamanda, görüş iştirakçılarına UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə ölkəmizdən üzv olan Bakı, Şəki və Lənkəran şəhərlərində gedən inkişaf prosesləri barədə məlumat verilib.

***XQ***

# Zəfər savaşından muzeyə gedən qəhrəmanlıq yolu

**Xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsi ağrılı-acılı günlərlə yanaşı, qürurverici məqamları ilə yaddaşlara əbədi həkk olub. Elə buna görə dövlətimizin başçısının müvafiq sərəncamı ilə Azərbaycan xalqının müharibədə göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi yaradılıb.**





Hazırda tikinti-təmir işlərinin intensiv aparıldığı memorial komleks və muzey paytaxtın Nobel prospektində – prospektlə Ağ şəhər bulvarı arasında salınan parkda qurulur. Zəfər muzeyi fəaliyyətə başlayacağı vaxtadək onun fondlarının komlektləşdirilməsi işi Azərbaycan İstiqlal Muzeyinə həvalə olunub. Bunun üçün Muzeyin əməkdaşları şəhid və qazi ailələrindən, Vətən müharibəsinin iştirakçılarından şəxsi əşyaların, materialların, hərbi qənimətlərin toplanması işini davam etdirirlər.

İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli bildirdi ki, Vətən müharibəsi şəhidləri və qazilərimizin əşyalarının toplanıb komplektləşməsi işinə muzeydə hər kəs böyük həvəslə girişib.

– Qəhrəmanlarımızın istifadə etdiyi əşyaların hər biri şanlı tarixin parçasına çevrilib. Zəfər muzeyi üçün komlektləşdirmə işinin bizə həvalə olunduğu 2021-ilin yanvar ayından Mədəniyyət Nazirliyinin tapşırığı ilə üzərimizə düşən öhdəliyi bütün gücümüzlə yerinə yetiririk. Bunun üçün əməkdaşlarımız həm paytaxtda, həm də rayonlarda şəhid ailələri ilə görüşlər keçirir, onların yadigar qalan əşyalarını toplayır və komplektləşdirirlər. Vətəndaşlara da müraciət etmişik, onlar da bizə bu işdə dəstək göstərirlər.

Bizim muzeydə çoxdan bəri həyata keçirdiyimiz bir layihə var. Bu layihə “Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün” adlanır. Bu çərçivədə muzeydə qəhrəmanlarımzın şəxsi əşyalarının nümayiş olunduğu sərgilər açılır. Hazırda mövsümi işlərlə bağlı layihə dayandırılıb, amma sentyabrdan işi davam etdirəcəyik. Burada təkcə Vətən müharibəsində şəhid və qazi olmuş qəhrəmanların deyil, Aprel döyüşləri və anti-terror əməliyyatı şəhidləri, habelə Birinci Qarabağ müharibəsində şəhid və qazi olmuş qəhrəmanların şəxsi əşyaları – geyimləri, fotoları toplanılır. Bu arada Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili Qoşunlar, Müdafiə Sənayesi Nazirliyi və Dövlət Sərhəd Xidməti tərəfindən müəyyən sayda əşyalar, maketlər, geyimlər Zəfər muzeyi fondunun komlektləşdirilməsi məqsədilə İstiqlal Muzeyinə təhvil verilib. Toplanmış bütün əşyalar Zəfər muzeyi fəaliyyətə başladığı vaxtda oraya təhvil veriləcək.

Hazırda Zəfər muzeyinin fondlarının komplektləşdirilməsi üçün toplanan əşyaların sayı 9 min 203-ə çatıb. Bu il isə şəhid ailələri, qazilər və Vətən müharibəsində iştirak edən şəxslərə aid 300 əşya muzeyə gətirilib.

Onu da öyrəndik ki, Polad Həşimova, Xudayar Yusifzadəyə, Rəşad Babayevə aid əşyalar artıq tam komplektləşdirilib.

“Zəfər Muzeyi”nin yerləşdiyi müvəqqəti məkandan iftixar duyğuları ilə ayrıldıq. Yeni muzeyin yaradılmasının eyni zamanda gələcək nəsillərdə güclü hərbi-vətənpərvərlik ruhunun aşılanmasına xidmət etməsi qəlbimizi qürurlandırdı.

***Ceyhun ALIŞLI***

# “İlmələr və düşüncələr” adlı ustad dərsi

**Masallıda ululardan bizə yadigar qalan, xalqımızın uzaq keçmişindən gələn milli-mənəvi dəyərləri yaşadan, tətbiqi incəsənətin qədim növü olan xalçaların təbliğindən ötrü vaxtaşırı tədbirlər görülür.**



Bu günlərdə isə Rayon Tarix-Diyarşünaslıq Muzeyi, eləcə Gənclərin İnkişaf və Karyera Mərkəzinin Lənkəran–Astara Regional nümayəndəliyi Masallı bölməsinin birgə təşkilatçılığı sayəsində “İlmələr və düşüncələr” adlı ustad dərs keçirilib. Əsas məqsəd min bir çaları göz oxşayan, bir-birini təkrar etməyən, əlvan naxışlarla “bəzənən” bu sənətin yeni nəsillərə daha da ətraflı tanıdılması idi.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Əntiqə Tağıyeva xalça sənəti haqqında çıxışında deyib: “Azərbaycanda xalçaçılığın tarixi çox qədimlərə gedib çıxır. Onun ilk nümunələri eramızdan əvvələ aiddir. Azərbaycan mədəniyyətində xalça, sadəcə, bir ev bəzək elementi deyil, o həm də bir-birini əvəz edən tarixi dövr və üslubları özündə yaşadan, bədii zövqü əks etdirən incəsənət nümunəsi kimi tanınıb və zamanın sınağından uğurla çıxıb. İndi gözəl, zərif xalçalar istehsal etməklə, bu sənəti gələn nəsillərə ötürmək bizim mənəvi borcumuzdur”.

Sonra təcrübəli xalçaçı Tünzalə xanım iş prosesi, xalça toxunan zaman istifadə olunan alət və məmulatlar haqqında geniş söhbət açıb. Dərs zamanı iştirakçıları daha çox düşündürən suallar ətrafında maraqlı müzakirə aparılıb. Həmçinin xalça dəzgahı arxasına keçən yeniyetmə və gənclər bir neçə ilmə vurublar.

***Zəfər ORUCOĞLU***

Beynəlxalq həyat

# Sabiq baş nazir varisinə nə məsləhət görür?



(əvvəli 1-ci səhifədə)

Böyük Britaniyanın sabiq baş naziri Tony Bleyer Kir Starmeri ifrat sağçı qüvvələrin populyarlığının artmasının qarşısını almaq üçün miqrasiya axınına nəzarət etməyə çağırıb. Söhbət, ilk növbədə, populist Naycel Farajın rəhbərliyi ilə parlament seçkilərində 14,2 faiz səs toplayaraq 3-cü yeri tutan “Reform” UK partiyasından gedir. Düzdür, majoritar sistemə görə o, İcmalar Palatasında cəmi 5 yer qazanıb, britaniyalıların 12,2 faizinin səs verdiyi Liberal Demokratlar isə parlamentin aşağı palatasında 72 yer əldə ediblər.

Bununla belə, ifrat sağçı qüvvələrin artan populyarlığı göz qabağındadır və Bleyer rəhbərlik etdiyi institutun təşkil etdiyi konfransda deyib ki, bu tendensiyanın davam etməsinə icazə verilə bilməz. Eyni zamanda, sabiq leyborist baş nazir ümid edir ki, varisi vəzifələrin öhdəsindən gələcək. Bununla belə, o, Starmeri diqqətli olmağa çağıraraq deyib ki, qanun və asayiş diqqət mərkəzində olmalıdır.

Bleyer Avropa ilə yenidən əlaqə qurmağı və bir sıra məsələlərdə onunla yeni regional blok yaratmağı təklif edib. Bundan başqa, sabiq baş nazir Starmerdən yaşıl iqtisadiyyatla bağlı realist olmasını da istəyib. Məsələ ondadır ki, leyboristlər bu mövzuda kifayət qədər səs-küylü bəyanatlar veriblər. Onlar Britaniyanı atom elektrik stansiyaları, külək turbinləri və günəş panelləri vasitəsilə özünü elektrik enerjisi və yanacaqla təmin edə biləcək “enerji superdövləti”nə çevirəcəklərini vəd ediblər. “Yaşıl İnkişaf Planı” ildə 5 milyard funt-sterlinq investisiya və 600 mindən çox iş yerinin yaradılmasını nəzərdə tutur. Mütəxəssislər iddia edirlər ki, bütün bunlar müəyyən mənada qeyri-mümkündür və cənab Bleyer buna yumşaq bir şəkildə eyham vurub. Sabiq baş nazir diqqətə çatdırıb ki, leyboristlərin həqiqi əməlləri vədlərdən uzaqlaşmamalıdır. Qeyd etmək yerinə düşər ki, leyboristlər 2030-cu ilə qədər karbon qazı emissiyalarını sıfıra endirə biləcəklərini bildirirlər.

Bununla belə, seçiciləri maraqlandıran əsas məsələ iqtisadiyyatla yanaşı, qeyri-qanuni miqrasiyadır. La Manş boğazı boyunca üzən qayıqların daimi axını britaniyalıları çox narahat edir. Leyboristlər artıq bildiriblər ki, miqrantları Ruandaya göndərməyəcəklər. Söhbət nə az, nə çox, 100 min qeyri-qanuni immiqrantdan gedir. İndi böyük ehtimalla onlara sığınacaq üçün müraciət etməyə icazə veriləcək. Bu, təkcə ərizələrə baxmağa sərf olunan vaxt deyil, həm də qeyri-qanuni mühacirlərin qaldıqları müddətdə saxlanmasına sərf olunan puldur.

“Daily express”ə görə, leyboristlər təqaüdlərə vergi tətbiq etməyə başlaya bilər. Bu, bir çox yaşlı britaniyalıları qəzəbləndirə bilər, çünki onlar illərdir əmanətlərini sonradan vergiyə cəlb edilmədən gəlirlərinin bir hissəsini pensiya fondlarına ödəyiblər.

Təbii ki, bütün bunlar sağçı mühafizəkar medianın fərziyyələri ola bilər, amma hökumət vəd edilən dəyişikliklərə başlamaq üçün haradansa pul tapmalıdır. Müxalifət düşərgəsi gözləyir ki, yeni hökumət sıravi britaniyalının maddi vəziyyətinə müsbət təsir göstərəcək hansı addımları atacaq.

Hazırda Kir Starmer dünya liderləri ilə fəal şəkildə əlaqələr yaradır. O, bu günlərdə Ağ evdə ABŞ Prezidenti Cozef Baydenlə görüşəcək və siyasi müşahidəçilər düşünürlər ki, həmin görüşdə cənab Starmer Ukraynaya dəstək verəcəyini elan edəcək.

***S.ELAY***
***XQ***

# Gürcüstanın müstəqil addımı Qərbi niyə qəzəbləndirib?

**Almaniya Gürcüstanla münasibətlərə yenidən baxacaq. Bu barədə iyulun 10-da Almaniyanın Gürcüstandakı səfiri Peter Fişer bildirib. Diplomat daha sonra deyib: “Biz də Gürcüstanla münasibətlərimizi nəzərdən keçiririk. Gürcüstan qarşısında heç bir yeni öhdəlik götürməməyə qərar vermişik. Ona görə də, Almaniyadan yeni maliyyə öhdəlikləri olmayacaq. Hərbçilərimiz də “Layiqli tərəfdaş” təlimlərində iştirakdan imtina ediblər”. Fişer qeyd edib ki, Berlin 2023-cü ildə Tbilisidə keçirilməsi və bu ilin yayında Almaniyanın paytaxtında nəzərdə tutulan böyük hüquq forumunu ləğv edib. Berlin bundan sonrakı addımlarını da nəzərdən keçirir.**



Səfir Avropa İttifaqının (Aİ) Gürcüstanın üzvlük prosesini dayandırmaq qərarını təsdiqləyib. O, Gürcüstan vətəndaşlarını Aİ-nin onlar üçün nə demək olduğunu bir daha düşünməyə çağırıb. Diplomat təəssüf edib ki, Gürcüstanın Almaniya və Aİ ilə münasibətləri aşağı səviyyəyə düşüb.

Xatırladaq ki, Gürcüstanın ABŞ və Aİ ilə münasibətlərinin pozulmasına mayın 14-də “Xarici təsirin şəffaflığı haqqında” qanunun qəbulu səbəb olub. Prezident Salome Zurabişvili qanuna veto qoyub, lakin sonradan deputatlar səs çoxluğu ilə onu ləğv ediblər. Qanun iyunun 3-dən qüvvəyə minib. Bu məsələyə Aİ diplomatiyasının rəhbəri Josep Borrell də münasibət bildirib. O deyib: “Xarici təsirin şəffaflığı haqqında” qanunun qəbulu Gürcüstanın Aİ-yə inteqrasiya prosesinə mənfi təsir göstərəcək”.

Bundan əvvəl isə ABŞ Gürcüstan vətəndaşına viza sanksiyaları tətbiq edib və məhdudiyyətləri genişləndirməyə hazır olduğunu bildirib. Bunu şərh edən Tbilisi meri Kaxa Kaladze deyib ki, ölkədə heç kim ABŞ sanksiyalarından qorxmur.

İyulun 8-də Vaşinqton Tbilisi ilə bütün əməkdaşlıq proqramlarını nəzərdən keçirəcəyini də açıqlayıb. Milli Təhlükəsizlik Şurasının Avropa məsələləri üzrə direktoru Maykl Karpenterin sözlərinə görə, Gürcüstan son aylarda “Avroatlantik inteqrasiya perspektivləri baxımından” yanlış istiqamətdə irəliləyir.

***PÜNHAN***
***XQ***

# Hidayət dünya cüdosunun zirvəsindədir

## *O, Parisə ən yüksək pilləni də qazanmaq üçün gedəcək*



**Dünyanın ən böyük idman hadisəsi – Yay Olimpiya Oyunlarının açılışına 15 gün qaldı. İyulun 26-dan avqustun 11-dək Parisdə keçiriləcək olimpiadada ölkəmizi 15 idman növü üzrə 17 proqramda 48 idmançı təmsil edəcək. Ötən olimpiadalarda olduğu kimi, budəfəki mötəbər Oyunlarda da komandamızın heyətində güclü idmançılar yer alıb və onların hər biri medal qazanmağa iddialıdır.**

Paris Olimpiadasında medal ümidlərimizdən biri də, cüdo üzrə dünya Olimpiya reytinqinin lideri Hidayət Heydərovdur.

Hidayət Heydərov 1997-ci ildə Qazaxıstan Respublikasının Karaqanda şəhərində dünyaya göz açıb. Əslən Göyçayın Alxasava kəndindəndir. 3 yaşında olarkən ailəsi Bakıya köçüb. 6 yaşda ikən Tərlan Həsənovun rəhbərliyi altında ilk məşqlərinə başlayıb.

Əzmkarlığı ilə diqqət çəkən Hidayət Heydərov kişilər arasında ilk böyük uğurunu – Avropa çempionluğunu 2017-ci ildə qazanıb. Növbəti illərdə daha 3 dəfə qitədə rəqiblərindən güclü olub. Dünya çempionatlarında 2018-2019 və 2022-ci illərdə bürünc medala sahib olsa da, qızıl medal arzusu bu il gerçəkləşib.

**Şəxsi məşqçisi Tərlan Həsənov qəzetimizə açıqlamasında bu barədə danışdı:**

– Bir neçə ay bundan əvvəl mənə yanıqlı-yanıqlı şikayət etdi ki, 26 yaşı var, amma hələ də dünya çempionu ola bilməyib. Onu sakitləşdirib, mütləq bu titulu qazanacağına inandığımı bildirdim. Bu il Abu-Dabidə dünya çempionu olanda evdə idim. Göz yaşları içərisində onun Azərbaycan Himnini oxuduğunu ekranda görəndə, sevincimdən mən də ağladım. Ümumiyyətlə, Hidayət uşaqlıqdan əzmkarlığı ilə yanaşı, emosionallığı, inadkarlığı ilə digərlərindən fərqlənirdi. 6 yaşdan rəhbəri olduğum “Kanokan TT” klubunda cüdo məşqlərinə başlayıb. Onun enerjisi bitib-tükənmirdi. Məşqlərdən doymurdu. Nə qədər yük vermişiksə, dözüb, heç vaxt şikayət etməyib. Onu da qeyd edim ki, uduzmaq ona çox pis təsir edirdi və indiyədək də belədir.

İlk beynəlxalq yarışda – 2007-ci ildə Xarkovda Ukraynanın birinci Olimpiya mükafatçısı Nokolay Novikovun adına keçirilən turnirin finalında ona qarşı ədalətsizlik oldu. Yerli idmançıya uduzduruldu və gümüş medal aldı. Onun rəqibi Novikovun nəvəsi idi. Final qarşılaşmasından sonra diz üstə oturub ağlayır və yenidən güləşmək istədiyini tələb edirdi. Hidayət nadir hallarda yarışlarda gümüş medal qazanıb. Əksər vaxtlarda bürünc, yaxud qızıl medala sahib olub. Finalda həmişə qızıl uğrunda güləşib.

**Tərlan müəllim “Hidayətdən Paris Oyunlarında hansı nəticəni gözləyirsiniz”, – sualına belə cavab verdi:**

– Ondan qızıl medal gözləyirəm. Hidayət ümidimizi həmişə doğruldub. Ötən ilin dekabr ayında Tokioda “Böyük dəbilqə” yarışının finalında 5 qat dünya çempionu Soiçi Haşimotonu məğlub edərək qızıl medal aldı. Həmin idmançıya karyerası ərzində 6 dəfə məğlub olmuşdu. Bu, inamlı qələbə idi. Bu il Hidayəti çox önəmli bir şans gözləyir. Onun hədəfi Olimpiya çempionluğudur. Amma o, olimpiadadan sonra karyerasını bitirməyəcək və uğurlarına davam edəcək.



Azərbaycan Cüdo Federasiyasının Vitse-prezidenti, 73 kiloqram çəkidə Olimpiya çempionu olmuş Elnur Məmmədli federasiyanın saytına açıqlamasında yetirməsinin çox güclü potensialının olduğunu bildirib:

– Hidayətlə oxşar cəhətlərimiz çoxdur. O, düşünəndə artıq nə demək istədiyini bilirəm. Tatamidə mübarizə zamanı məndə də çılğınlıq, emosiya var idi. Amma Hidayətdə bu, daha qabarıqdır. Amma onda elə xüsusiyyətlər var ki, məndən üstündür və özünə də deyirəm. Məndə bu qədər enerji olsaydı, bəlkə də, 3 dəfə Olimpiya çempionu olardım. O, fasiləsiz 25-30 dəqiqə güləşə bilir. Mən isə 5-6 dəqiqədən sonra yorulurdum. Bir özəlliyi də odur ki, çox diqqət sevir və bununla yaşayır, güləşir.

Hidayət, həm də prinsipial idmançıdır. Kosovoda keçirilən Avropa kuboku yarışında hakim finalda haqsızlıq edib, Hidayəti yerli idmançıya uduzdurdu. Son dünya çempionatında Hidayət dedi ki, kaş kosovolu ilə görüşəydim. Tale elə gətirdi ki, elə ilk görüşdə mübarizəsi kosovolu idmançı ilə oldu. Görüşdən qabaq prinsipiallıqla “Onu yaxşıca döyəcəyəm”, – dedi və rəqibi üzərində inamlı qələbə qazandı.

Hidayət Heydərov dünya çempionatında bütün rəqiblərini, o cümlədən yaponiyalı Tatsuki İşiharanı da məğlub edərək, cüdo tariximizdə 11 ildən sonra dünya çempionatının qızıl medalına sahib oldu. Onu da qeyd edək ki, istedadlı tatami ustası bu il həm də 4-cü Avropa çempionluğunu qazanıb. İndi idmançının medal kolleksiyasında qatıldığı bütün böyük turnirlərin baş mükafatı var. Çatışmayan yalnız “Olimpiya qızılı”dır. Ümid edirik ki, Hidayət Heydərov Paris Olimpiadasında da fəxri kürsünün ən yüksək pilləsində yer alacaq.

***Leyla QURBANOVA***
***XQ***


# Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası

2024–2025-ci tədris ili üçün aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla təkrar ali təhsil almaq məqsədilə sənəd qəbulu elan edir

050404 İqtisadiyyat
050402 Mühasibat uçotu və audit
050408 Marketinq
040503 Maliyyə
040510 Dövlət və bələdiyyə idarəetməsi
050807 Sosial iş

Təkrar ali təhsilə müraciət etmək üçün https://portal.edu.az/ saytından qeydiyyatdan keçərək müvafiq sənədləri təqdim etmək lazımdır.

https://portal.edu.az/ saytında qeydiyyatdan keçənlərlə qısa müddətdə (on beş iş günündən gec olmayaraq) əlaqə yaradılır. Əgər elektron qaydada yerləşdirilmiş sənədlər müvafiq tələblərə cavab verərsə, o zaman müraciətçi təkrar ali təhsil almaq hüququ qazanır. Təkrar ali təhsil almaq üçün müraciət edənləri maraqlandıran bütün suallar vaxtında və ətraflı cavablandırılır.

Təkrar ali təhsil üçün sənəd qəbulunun son tarixi 31 avqust 2024-cü ildir.

Telefonlar – 563-13-07, 563-15-40.
Ünvan – AZ 1130, Bakı şəhəri, Azadlıq prospekti 181.

# Azərbaycan İlahiyyat İnstitutu

2024/2025-ci tədris ili müddətinə pedaqoji işçi (dosent, baş müəllim və müəllim) vəzifələrinə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan dərc edildiyi gündən başlayaraq 30 gündür.

Müsabiqədə iştirak etmək istəyən şəxslər rektorun adına ərizə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kadrların şəxsi qeydiyyat vərəqəsi;
- tərcümeyi-hal;
- ali təhsil, elmi ad və elmi dərəcə haqqında sənədlərin surəti;
- dərc olunmuş elmi əsərlərin, məqalələrin təsdiq edilmiş siyahısı..

Əlavə məlumat üçün – telefon: (+ 994 12) 436 - 77 - 66.
Ünvan – AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd Naxçıvani küçəsi 29.

# “STAR PARK” ASC səhmdarlarının nəzərinə!

“Star Park” ASC səhmdarlarının illik ümumi yığıncağı 4 sentyabr 2024-cü il saat 15.00-da Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül qəsəbəsi, Neft prospekti 30/68 nömrəli ünvanda keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Səhmdar cəmiyyətin 2023 və 2024-cü illər üçün maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

Səhmdarlar onları maraqlandıran məsələlərlə əlaqədar rəhbərliyə müraciət edə bilərlər.

Səhmdarlardan şəxsiyyət vəsiqəsinin və hesab açılmış bankın rekvizitlərinin təqdim edilməsi xahiş olunur.

Telefon – 441-14-48, faks – 498-07-03.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 143 (30547) 11 iyul 2024-cü il, cümə axşamı










# “Fransızlar “uşaq fenomeni”nə təslim oldular”

## İspaniya milli komandasının uğurlu yürüşü finala çatdı

**İspaniya yığması Avro-2024-ün finalında! Avropa çempionatında ən yaxşı nəticə göstərən komanda Fransanı evə göndərdi. Bu, sadəcə, finala çıxmaq matçı deyildi, böyük ideoloji qarşıdurma idi. İspaniya milli komandası favoritlər arasında ən yaxşı çıxış etdiyini təsdiqlədi. Fransız futbolu isə haqlı olaraq turnir futbolu, lakin daha tez-tez - antifutbol adlandırılır.**





Avro-2024-ün ilk yarımfinalında dünya futbolunun ağır çəkili iki komandası qarşılaşdı. Biri turnirin ən uğurlu komandası, digəri isə kubok uğrunda mübarizəni davam etdirənlər arasında ən az xal toplayan komanda idi.

Didye Deşam yarımfinalda Antuan Qrizmanı ehtiyat oyunçular skamyasında qoymuşdu. Fransa mətbuatı baş məşqçinin forvardın formasından narazı olduğunu yazmışdı. Luis de la Fuente isə start heyətində üç dəyişiklik etmək məcburiyyətində qalmışdı: Dani Karvaxal və Robin Le Normand cəza aldıqları üçün heyətə düşməmişdilər, Pedri üçün isə zədə səbəbindən Avro-2024 erkən başa çatmışdı. 38 yaşlı Xesus Navas müdafiənin sağ cinahında Kilian Mbappeyə qarşı oynayırdı. Kilian bu gün meydana maskasız çıxmışdı! Öz əslini bərpa etmək və Fransanın qalib gəlməsinə kömək etmək üçün “Real” Madridin yeni oyunçusu burnunun qırılması riskini gözə almışdı.



İlk təhlükəli məqamı ispan futbolçularının yaratması təəccüblü olmadı. Çünki ispanlar elə ilk dəqiqələrdən əvvəlki kimi daha yaxşı oynadılar. Deşamın komandası müdafiə olunarkən Rodriyə qarşı N'Qolo Kante “silah”ını işə saldı. Amma bu vəziyyətdə fransızlar digər rəqib mərkəz yarımmüdafiəçisi Fabian Ruizi diqqətdə saxlamaqdan məhrum olmuşdular. Avropa çempionatlarının və ya Dünya Kubokunun yarımfinalında oynayan ən gənc futbolçu Lamin Yamal rəqib qapısının uzaq dirəyinə asma ötürmə etdi, lakin Fabian Ruizin dəqiq baş zərbəsi üçün boyu və ya kifayət qədər hündürə tullanmağa gücü çatmadı. Top qapının üstündən keçdi.

Bundan cəmi dörd dəqiqə sonra fransızlar ispanların bu hücumuna qolla cavab verdilər. Navasın cinahı ilə bağlı qorxular səkkizinci dəqiqədə özünü doğrultdu. Navas öz mövqeyini zəif seçdi, ofsayd əvəzinə dərinlik yaratdı və Kilianın ötürməsinə mane olmadı. Kilian Mbappe topu cərimə meydançasının sol kənarında qəbul etdi və qapıçı meydançasının uzaq dirəyənə ötürmə etdi. Emerik Laport qapıda önündə Randal Kolo-Muanini qaçırdığı üçün Mbappenin ötürməsi assistə çevrildi. Randal Kolo-Muani dəqiq oynadı və topu adi bir baş zərbəsi ilə küncə göndərdi. “Xoruzların” bu qolu, ispan futbol korridalarını əsla təslim etmədi.

Doğrudur, qoldan sonrakı 10 dəqiqə ərzində belə görünürdü ki, Fransa boşluqdan daha səmərəli istifadə edərək oyuna nəzarət edir. Amma Avro-2024-də biz Ronaldo kimi bir ulduzun “yoxa çıxması” ilə yanaşı, həm də başqa bir ulduzun – Lamin Yamalın doğulmasının şahidi olduq. Hər şey Lamin Yamalın çılğın və möhtəşəm qolu ilə başladı. O, əvvəlcə müdafiəçiləri aldatdı, sonra isə sol ayağı ilə zərbə endirib topu rəqib qapısının “doqquzluğuna” göndərdi. Bu şedevr qolu ilə Lamin Avropa çempionatları tarixində ən gənc qol vuran futbolçu kimi tarixə düşdü.

Matçdan əvvəl fransalı təcrübəli yarımmüdafiəçi Adrien Rabiot “Yamalı comfort zonasından çıxaracağına” söz vermişdi. Gənc cinah oyunçusu buna sosial şəbəkədə paylaşımı ilə cavab vermişdi: "Səssiz hərəkət edin, yalnız “şah və mat” demək vaxtı gələndə danışın." Lamin Adrianın müdafiə zonasından keçib cərimə meydançasının kənarından yuxarı küncə gözəl zərbə ilə qol vurmaqla Rabiotu və Fransa millisini mat qoydu.

Beləliklə, Fransa və İspaniya hədəfə ilk zərbələri ilə qol vurdular. “Xoruzlar” “korridoların” cavab qolundan sonra özlərinə gəlməyə macal tapmamış de la Fuentenin komandası ikinci qolu vurdu. Hücum zamanı Yamal yenidən mərkəzə keçərək, ötürməni edən Navas üçün cinahı azad etdi. Qapı önündən qayıdan topu ələ keçirən Dani Olmo parlaq oynadı. İki toxunuşla o, zərbə mövqeyinə girdi və aşağıdan “atəş açdı”. Jül Kunde ayağını yerə qoydu və top tordadır. Yenə avtoqol. Amma əvvəlkilərdən fərqli olaraq, bu avtoqol fransızların xeyrinə olmadı. Yox, bu qol ona haqqı çatan Olmonun hesabına yazıldı. Axı möhtəşəm oynayan o, idi.

Fasiləyə qədər ispanlar və fransızların hər biri hədəfə üç zərbə vurdu. Deşam bu hissəni de la Fuenteyə uduzdu, ona görə də ikinci hissədə nəyisə dəyişməli idi. Pressinq alınmadı, “xoruzlar” “korridolar”ı təzyiq altında saxlaya bilmədilər.

Baş məşqçi Deşam Qrizmanı Bredli Barkol və Eduardo Kamavinqa ilə birlikdə meydançaya buraxmazdan əvvəl, daha 25 dəqiqə gözlədi. İkinci hissənin əvvəli də ispanlar Fransa yığmasının xətlərindəki boşluqlardan istifadə edərək əks-hücumlarla üstünlüyü ələ keçirdilər. Amma Navas yorulduğundan 58-ci dəqiqədə meydanı tərk etdi. De la Fuente Naçonu sağ cinaha keçirməli oldu və müdafiənin mərkəzində yeni Laport və Dani Vivian dueti formalaşdı.

İspaniya yığması, sözün əsl mənasında, çempion kimi oynadı. De la Fuentenin komandası fransızları topun arxasınca qaçmağa məcbur edir və düşünülmüş şəkildə topa sahiblik edərək tempi aşağı salırdılar. Kapitan Alvaro Morata bilərəkdən özünə qarşı cərimələr topladı. Matçın əsas vaxtının bitməsinə cəmi 25 dəqiqə qalmış Deşamın komandası fasilədən sonra ilk dəfə qapıya zərbə endirdi. Hətta həmin epizodda da Teo Hernandes topu hardasa “açıq kosmosa” vurdu. Ruiz öz qapısı qarşısında anı bir təhlükəli vəziyyət yaratdı. Öz texnikasına çox inanan Fabian bir neçə dəfə ətrafında fint etdi və gözlənilmədən öz cərimə meydançasında topu itirdi. Çətinliklə də olsa ispanlar bu vəziyyəti aradan qaldırdılar.

Bundan sonra İspaniya komandası topa nəzarətə üstünlük verdi və bununla da Fransanın hücumdakı aktivliyini minimuma endirdi. İkinci hissədə Fransa ispanların hədəfinə yaxınlaşmaları təşkil etməyə çalışsa da, nəticəsi olmadı. Hətta təcrübəli Antuan Qrizmann və Olivier Jirunun meydana çıxması da kömək etmədi. Mbappe heç maskasını çıxarmamış kimi oynadı. Kilian meydanda itmiş kimi görünürdü və özünü yaxşı vəziyyətdə tapanda belə topu çərçivədən kənara vururdu.

Deşamın komandası Unai Simonun qapısına cəmi 9 dəfə zərbə endirdi, üç dəfə hədəfə tuş gəldi. İspanların altı zərbəsindən ikisi hədəfə çatmışdı. Buna baxmayaraq, onların matçı xilas etməyə ehtiyacları yox idi. Fransızlar əvvəlki kimi yenə zəif hücum oyunu nümayiş etdirdilər. Ona görə də finala layiq deyildilər.

Statistikaya nəzər salaq:

İspaniya millisinin yarımmüdafiəçisi Lamin Yamal eyni vaxtda futbol kralı Pelenin iki rekordunu geridə qoydu 16 yaşlı ispaniyalı tarixdə dünya çempionatı və ya avronun yarımfinalında oynayan ən gənc oyunçu və həmin mərhələdə ən gənc qol vuran futbolçu oldu. Yamal 16 yaş 362 günlük, Pele isə 1958-ci il Dünya Kubokunda 17 yaş 239 gün olarkən qol vurub.

İspaniya millisinin müdafiəçisi Xesus Navas Avropa çempionatının yarımfinal matçları tarixində ən yaşlı oyunçu oldu. O, 38 yaş 228 günlə Avro-2008-in finalında İspaniya ilə oynayan Almaniya yığmasının qapıçısı Yens Lehmanın rekordunu üç gün yenilədi.



Fransa millisinin hücumçusu Randal Kolo-Muani Fransa millisinin tarixində dünya çempionatının və avronun yarımfinalında qol vuran üçüncü futbolçu olub. Əvvəllər bunu yalnız Mişel Platini etmişdi. Platini 1982-ci il Dünya Çempionatı, 1984-cü il Avropa çempionatında və Zinəddin Zidan isə Avro-2000, DÇ 2006-da buna nail olmuşdular..

İspaniya millisi tarixində beşinci, 2012-ci ildən sonra isə ilk dəfə Avropa çempionatının finalına yüksəldi. Üçqat Avropa çempionu olan ispanlar turnirdə qalib gəlsələr, Almaniyanı geridə qoyub, Avropanın ən titullu komandası olacaqlar.

Avro-2024-ün ən yaşlı futbolçusu Xesus Navas ən gənc oyunçu və tərəfdaşı Laminin oyunundan heyranlıqla danışaraq deyib: "Onun fantastik zərbə ilə vurduğu cavab qolu İspaniyanı yenidən oyuna qaytardı. O, belə gənc yaşda müdafiədə çox çalışır, hücumda topla həmişə təhlükəlidir və mövqeyi ilə heyran qoyur. O, sağ cinahda məhsuldar işləyirdi”.

İspaniya milli komandasının jurnalisti Qrem Hanter millisinin qələbəsini belə qiymətləndirir: “Möcüzəli anlarla dolu turnirdə rəngarəng matç. Əminəm ki, neytral azarkeşlər bu görüşdə baş verənlərdən gözlərini çəkə bilmədilər. Lamin Yamalın istedadına demək olar ki, heç kim şübhə etmirdi, lakin onun Münhendəki oyununu izləmək sadəcə həzz verirdi”.

Fransa milli komandasının müxbiri Aleks Klementson millisinin oyununa haqlı olaraq bir qədər tənqidi yanaşıb: O yazır: “Deşamın komandası üçün işlər bundan yaxşı başlaya bilməzdi. Kolo-Muani erkən qol vurdu, lakin əvvəllər güclü olan müdafiə ispanların sürətli hücumunu cilovlaya bilmədi. Bu gecə İspaniya gecəsi idi”.

İspaniya yığmasının baş məşqçisi Luis de la Fuente təbii ki, komandasının oyunundan məmnundur və bunu gizlətmir: "Mən bu oyunçular qrupuna inanmağa davam etməliyəm. Onlar işgüzarlıq baxımından çox səxavətlidirlər. Bu, bir daha sübut edir ki, komandamız qələbəyə nə qədər acdır. Mən meydanda 26 istedada rəhbərlik etmək imkanına görə Tanrıya minnətdaram”.

Matçın oyunçusu, Avroda rekord yazan qolundan sonra hədsiz sevincini paylaşan Lamin Yamal deyir: “Finalda oynayacağımız üçün çox şadam, amma bu gün heç kim gözləmirdi ki, bu qədər tez qol buraxacağıq. Mən məhz ən yuxarı küncü hədəfə aldım və top ora uçandan sonra təsvirolunmaz sevinc dalğası bütün ruhumdan keçdi”.

Bu qələbədən sonra İspaniya millisi Avropa çempionluğuna daha da yaxınlaşdı. İspaniya millisinin yarımmüdafiəçisi Dani Olmo deyib: "İndi biz həqiqətən yaxınıq. Bir addım uzaqda. İnanılmaz komandamız var, amma buna nail olmaq üçün çox çalışdıq. İndi biz finalda olmağa tam layiqik. Mənim üçün fərqi yoxdur. Kiminlə oynayırıq”.

Həqiqət ondan ibarətdir ki, İspaniyanın ən böyük cazibəsi onun iki gənc cinah oyunçusunun enerjisi və ehtirası olmaqda davam edir - Nico Uillyams yenə əla idi, lakin uzaq məsafədən vurduğu qol və əla ümumi performansı ilə fərqlənən Lamin Yamal mükəmməl idi. Bu gənc oyunçuların və onların komandasının turnirdə etdikləri əsl həqiqətdə qeyri-adi, xüsusi bir əlamətdir.

“Mundo Deportivo” nəşri də bəlkə bunu diqqətə alaraq İspaniya – Fransa matçının şərhinə maraqlı bir başlıq seçib: “Mbappe – Lamin Yamalın məqsədini daha yaxşı görmək üçün maskasız oynayırdı” . Məqalədə jurnalist Kristina Kubero Fransa millisinin kapitanı, “Real” Madridə yeni gəlmiş ulduzla “Barselona”lı gənc istedadın qarşıdurmasına diqqət çəkərək yazır:

“İlk hücumlarından birində Mbappe Kolo Muaniyə assistentlik edərək komandasını önə çıxartdı. Bu, özünəməxsus bir oyunçunu fövqəlgücünün yenidən qayıtdığına inandırdı. Bu böyük səhvdir. Superqəhrəman başqası idi: bu, Leo Messinin varisi adlandırılan, şənbə günü 17 yaşı tamam olsa da, hələ 16 yaşı olan, Mbappenin maskasıız aydın şəkildə gördüyü fantastik zərbəni vuran idi. “Real” Madridin fransızına o qolu bütün möhtəşəmliyi ilə görməyə heç nə mane olmadı. Beləliklə, Kilian anladı ki, Messinin varisi olmağa çağırılanlar arasında Olimpda o, tək deyil”.

“Corriere dello Sport” isə bunu daha ironiyalı şəkildə belə yazır: “Fransızlar “uşaq fenomeni”nə təslim oldular”. Məqalə müəllifi yazır: “Yamalın dühası və Dani Olmonun qolu sayəsində İspaniya Fransaya qalib gəldi və Avro-2024-ün finalına yüksəldi. De la Fuentenin komandasına Kolo-Muaninin qoluna cavab vermək və 2012-ci ildən bəri baş tutmayan finala keçidi təmin etmək üçün 4 dəqiqə kifayət etdi”.

Bəli, futbol belədir. Bəzi azarkeşlər çərşənbə axşamı gözəl futbol zəfəri görmək istəsələr də, digərləri ən uyğun olmayan anda məğlubiyyətin şahidinə çevrildiklərinə görə peşman oldular. İspaniya finala yüksəldi və indi sakitcə rəqibini gözləyə bilər. Bu, Jude Bellinghamın İngiltərəsi və ya Memfis Depayın Hollandiyası olacaq.

Berlində keçiriləcək bu finalda de la Fuentenin yetirmələri Hollandiya - İngiltərə matçının qalibi ilə oynayacaq. Əgər bu qarşılaşmada Saugeytin yetirmələri əsl ingilis futbolu oynasalar, çox yəqin əsl futbol tamaşası izləyəcəyik. Əks halda İngiltərə millisi də Fransanın aqibətini təkrarlayacaq və finala həsrət qalacaq.

***İlqar RÜSTƏMOV***
***XQ***



## Aranda yağmursuz və küləkli, dağlarda yağış və duman

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 11-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin günün birinci yarısında yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, arabir güclənəcək.***

Gecə 21-26°, gündüz 30-35° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 35-40 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın əksər rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26° , gündüz 35-39°, dağlarda gecə 11-16°, gündüz 21-26° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

***✓ Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən Süleymanov Azər Süleyman oğlunun adına verilmiş müharibə veteranı vəsiqəsi itmişdir. Vəsiqəni tapan şəxsdən (055) 588-80-00 nömrəli telefona zəng etməyi xahiş olunur.***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2979
SİFARİŞ 1519
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00